

# BƏDİÜZZAMAN AXİRZAMAN SUALLARINI CAVABLANDIRIR

## -1-

HARUN YƏHYA (ADNAN OKTAR)

# BƏDİÜZZAMAN AXIRZAMAN SUALLARINI CAVABLANDIRIR — 1

*Bədiüzzaman Said Nursinin Axırzaman haqqındakı sözləri işığında Hz. Mehdi, Hz. İsa və son dövrlərə dair suallara cavablar.*

— 5 fəsil —

# Mündəricat


1 1) Mücəddidlər nə vaxt göndərilirlər? 4

2 2) Hicri 12-ci əsrin mücəddidi kimdir? 6

3 3) Hicri 13-cü əsrin mücəddidi kimdir? 7

4 4) Hicri 14-cü əsrin (hal-hazırda yaşadığımız əsrin) mücəddidi kim olacaq? 9

5 5) Hz. Mehdi nə vaxt zühur edəcək? 12

6 6) Hz. Mehdi harada zühur edəcək? 15

7 7) Hz. Mehdini digər mücəddidlərdən fərqləndirən xüsusiyyətlər nələrdir? 17

8 8) Hz. Mehdi seyid olacaqmı? 19

9 9) Bədiüzzamanı Mehdi zənn edənlərə Bədiüzzaman nə demişdir? 21

10 10) Hz. Mehdi, hz. İsa ilə birgə fəaliyyət göstərəcəkmi və Hz. İsa (ə.s) hz. Mehdinin arxasında namaz qılıbmı? 24

11 11) Mehdilik mövzusunu rədd edənlər olacaqmı? 27

12 12) Hz. İsanın tələbələrinin sayı çox, yoxsa az olacaq? 29

13 13) Hz. Mehdinin tələbələrinin sayı çox, yoxsa az olacaq? 32

14 14) Hz. Mehdinin tələbələrinin xüsusiyyətləri nələrdir? 33

15 15) Risalə-i Nuru kim daha yaxşı başa düşəcək? 36

16 16) Risalə-i Nurun batini təfsirə ehtiyacı varmı? 38

17 17) Risalə-i Nuru təfsir etmək olarmı? 40

18 18) Axırzaman mövzusunda təfsir edənlər narahatlıq duyurlarmı? 43

19 19) Hz. Mehdinin gəlişi haqqında rəvayətlər olmasaydı belə, hz. Mehdinin zühur etməsi Adətullaha uyğundurmu? 44

20 20) Bədiüzzaman hz. Mehdi haqqında “keçmişdə qaldı” deyibmi? 46

21 21) Bədiüzzaman öz vəzifəsini necə izah edib? 47

22 22) Bədiüzzamanın dövründə bidətlər aradan qalxmışdı? 50

23 23) Hz. Mehdinin vəzifələri nələrdir? 51

24 24) Bu ittifaqın baş verməsinə hz. Mehdinin hansı xüsusiyyətləri və kimlər vəsilə olacaqlar? 57

25 25) Tarixdə kim bu vəzifələrin üçünü də eyni zamanda icra etmişdir? 59

26 26) Yaşadığı dövrdə Bədiüzzamana milyonlarla insan dəstək olmuşdurmu? 62

27 27) Hal-hazırda Quran əxlaqı dünya miqyasında yaşanırmı? 63

28 28) Hz. Mehdinin maddi imkanı geniş, yoxsa məhdud olacaq? 64

29 29) Müsəlmanların əsl İsəvilərlə ittifaqı olubmu? 65

30 30) Bədiüzzaman səltənət sahibi olubmu? 66

31 Əlavə: “Ağıllı dizayn” yalanı 67

32 Əlavə: Təkamül nəzəriyyəsinin sonu 72

FƏSİL

# Suallar 1–10

## 1) Mücəddidlər nə vaxt göndərilirlər?

“Ashabı Kütüb-i Sittədən İmam Hakimin “Müstedrek” kitabında və Əbu Davudun “Kitab-ı Sünen” kitabında, Beyhaki “Şuabı İman”da dəlillərə əsaslanaraq irəli sürdükləri: Hər yüz ildə bir Allah Təala bir mücəddid (hər əsrin əvvəlində dini həqiqətləri dövrün ehtiyacına görə açıqlamaq üzrə göndərilən böyük İslam alimi, yeniləyici) göndərir.. hədisi şərifinə məzhər (sahib, çatmış) və masadak (ifadə edilən xüsusiyyətlərə tam olaraq uyğun gələn) və müzhiri tam olan (xəbərdarlıq vəzifəsini tam olaraq yerinə yetirən)...” (Barla Lahikası, səh. 119)

Bədiüzzaman Peyğəmbərimiz (s.ə.v)-in hədislərinə əsaslanaraq Allahın hər əsrin əvvəlində bir mücəddid göndərəcəyini bildirir.

Peyğəmbərimiz (s.ə.v) bir başqa hədisində “hər əsrdə bir mücəddid göndərildiyini” belə bildirmişdir:

“Həqiqətən Əziz və Cəlil olan Allah hər yüz ilin əvvəlində bu ümmətin dinini bidətdən (dinə sonradan əlavə edilən xurafatlardan) təmizləyəcək, yeniləyəcək (elm sahibi) bir şəxs göndərər.” (Süneni Əbu Davud, 5/100)

Hədisdə Allahın hər yüz ildə bir mücəddid, yəni dini xurafatlardan təmizləyib Quranda izah edildiyi kimi ortaya qoyan, Peyğəmbərimiz (s.ə.v)-in sünnəsi ilə hərəkət edən, zamanın ehtiyaclarına görə insanların ağlında yaranan suallara Qurandan həll yolu gətirən bir şəxsi göndərdiyi ifadə edilir. Növbəti hissələrdə açıqlanacağı kimi, Peyğəmbərimiz (s.ə.v)-dən sonrakı hər əsrin əvvəlində insanlara doğrunu göstərəcək bir mücəddid göndərmişdir. Axırzamanın böyük mücəddidi də hz. Mehdi

olacaq. Hz. Mehdi bir çox hədisdə bildirildiyi kimi, Quran əxlaqını əskiksiz tətbiq edəcək, dini batil inanc və tətbiqlərdən təmizləyəcək, Peyğəmbərimiz (s.ə.v)-in sünnəsini yenidən canlandıracaq və bunu bütün dünyaya hakim edəcək.

## 2) Hicri 12-ci əsrin mücəddidi kimdir?

"Yuxarıdakı hədisi şərifin "hər yüz ilin əvvəlində dini təcdid edəcək (yeniləyəcək) bir mücəddid (yeniləyici) göndərir" müjdəsinin verdiyi məlumatlara uyğun) olaraq Həzrət-i Mövlana Xalid -əksər əhli həqiqətin təsdiqi ilə (din alimlərinin böyük əksəriyyətinin təsdiqi və ittifaqı ilə)- 1200-cü ilin, yəni on ikinci əsrin mücəddididir." (Barla Lahikası, səh. 120)

Bədiüzzaman bu sözündə hz. Mövlana Xalidin 12-ci əsrin mücəddidi olduğunu açıqlayır.

Hədislərdə bildirildiyi kimi, Peyğəmbərimiz (s.ə.v)-dən hər əsrin əvvəlində insanlara din əxlaqını və hökmlərini izah edən, dövrün ehtiyaclarına görə açıqlamalar edən bir mücəddid gəlmişdir. Məsələn, İmam Rəbbani hicri 1000-ci ilin mücəddididir.

Mövlana Xalidi Bağdadi hicri 1193-cu (miladi 1779-cu) ildə doğulmuş, hicri 1242-ci ildə (Miladi 1827) vəfat etmişdir. Bu mübarək insan İslam alimlərinin böyük əksəriyyətinin ittifaqı ilə, hicri 12 və 13-cü əsrlər arasındakı mücəddiddir. Bədiüzzaman da bu həqiqətə diqqət çəkir.

## 3) Hicri 13-cü əsrin müceddidi kimdir?

"Tam yüz il sonra Risalə-i Nurun bütün hissələrinə tam əməl ediləərək dörd tərəfdə eyni vəzifəni icra etdiyinə görə... səhih hədislərin də ifadəsi ilə Risalə-i Nur dini yeniləmə barəsində bir mücəddid hökmündədir." (Barla Lahikası, səh. 121)

Bədiüzzaman bu sözündə isə hz. Mövlana Xalidi Bağdadidən yüz il sonra özünün və əsərlərinin mücəddid vəzifəsini yerinə yetirdiyini açıqlayır. Buna görə də 13-ci əsrin mücəddidi Bədiüzzaman Səid Nursidir.

Bədiüzzaman Səid Nursi Mövlana Xalidi Bağdadidən tam 100 il sonra, hicri 1293-cü (Miladi 1878-ci) ildə doğulmuşdur. Hicri 1379-da (Miladi 1960) isə vəfat etmişdir. Bədiüzzaman hicri 12-ci əsrin mücəddidi Mövlana Xaliddən yüz il sonra, yəni 13-cü əsrdə böyük imani xidmət etmişdir. Buna görə də Bədiüzzaman da 13 və 14-cü əsrlər arasındakı mücəddiddir.

Bədiüzzaman Risalə-i Nurun mücəddidlik, yəni dini yeniləmə vəzifəsini tam olaraq yerinə yetirdiyi qənaətinə gəldiyini ifadə etmişdir. Risalə-i Nurun təsirləri ilə mücəddidlərin fəaliyyətləri bir-biri ilə uyğun gəlir, 12-ci əsrdə yaşamış hz. Mövlana Xalid ilə eyni vəzifəni, hicri 13-cü əsrdə Bədiüzzamanın vəsilə olduğu Risalə-i Nur yerinə yetirmişdir. Buna görə də hicri 12-ci əsrin mücəddidi Mövlana Xaliddən yüz il sonra nəşr olunan Risalə-i Nur, buna görə də risalələrin müəllifi olan Bədiüzzaman da 13 və 14-cü əsrlər arasındakı mücəddiddir.

Bədiüzzamanın burada irəli sürdüyü bir başqa əhəmiyyətli mövzu vardır. Bütün elçilər və peyğəmbərlər kimi, Peyğəmbərimiz (s.ə.v)-dən sonra gələn və İslam tarixində yer alan heç bir mücəddid və ya müctəhid də şəxsi-mənəvi olaraq göndərilməmişdir. Allahın Quranda bildirdiyi Adətullahına uyğun olaraq bütün mücəddidlər insanları xəbərdar edib

qorxudacaq, onları Allahın razılığı, rəhməti və cənnəti ilə müjdələyə biləcək, onlara doğrunu yanlışdan ayıran hidayət rəhbəri ola biləcək bir insan olaraq gəlmişlər. Hər birinin tələbələri və təqibçilərindən ibarət şəxsi-mənəviləri olmuşdur.

Mövlana Xalidi Bağdadi və Bədiüzzaman kimi mücəddidlər bunun ən gözəl nümunələrindəndirlər. Bu mübarək şəxslər yaşadıqları əsrlərdə şəxs olaraq gəlmiş böyük İslam alimləridir. Hər biri gözlənildiyi kimi gəlib vəzifələrini icra ediblər. Hər birinin yanında tələbələrindən ibarət və onları təmsil edən şəxsi-mənəviləri olmuşdur. Yanında olub onlara uyanlar və tələbələri böyük xidmət göstərmiş və onların şəxsi-mənəvilərini meydana gətirmişlər. Ancaq əlbəttə ki, bu şəxsi-mənəvilərin başında bir mücəddid olaraq həm Mövlana Xalidi Bağdadi, həm də Bədiüzzaman şəxsən iştirak etmişlər. Deməli, onlardan sonra gələcək olan hz. Mehdi də eyni şəkildə mənəvi şəxs olmayacaq, eyni vəzifələri boynuna götürə biləcək, dinin həqiqətlərini insanların ehtiyaclarına görə açıqlaya biləcək İslam alimi və mücəddid hökmündə bir şəxs olacaq. Bədiüzzaman bu həqiqəti verdiyi məlumatlarla çox açıq şəkildə ortaya qoyur.

## 4) Hicri 14-cü əsrin (hal-hazırda yaşadığımız əsrin) mücəddidi kim olacaq?

> "İndi aydın olur ki, şəddəli "lamlar" və "mimlər" cüt sayılsaydı, bir əsrdən sonra zülmü ortadan qaldıracaq şəxslər Hz. Mehdinin şagirdləri olacaq." (Şüalar, səh. 605)

Bədiüzzaman "bir əsr sonra" İslam dünyasının məruz qaldığı zülmün ancaq hz. Mehdi vəsiləsi ilə aradan qaldırılacağını söyləmişdir. Onun yaşadığı dövrdən sonra gələn əsrdə, yəni hicri 1400-cü illərdə hz. Mehdinin edəcəyi fəaliyyətlərlə müsəlmanların böyük bəlalardan qurtarıb hüzurlu həyat yaşayacaqlarını bildirmişdir.

> "Dünyanın gələcəkdə 1400 İL SONRA GƏLƏCƏK bir HƏQİQƏTİ öz yaşadıqları əsrə KARİB (yaxın) ZƏNN EDİBLƏR." (Sözlər, səh. 318)

Bədiüzzaman bu sözləri ilə İslam tarixində bir çox şəxsin hz. Mehdinin öz dövrlərində gələcəyini düşünərək yanıldıqlarını ifadə etmiş və hz. Mehdinin zühur vaxtı haqqında məlumat vermişdir.

Bədiüzzaman hz. Mehdinin, Peyğəmbərimiz (s.ə.v)-dən "1400 İL SONRA" gələcəyini xatırlatmışdır. Bu, çox əhəmiyyətli məlumatdır. Bədiüzzaman burada nə 1373, nə 1378, nə 1398, nə də başqa tarix verməmiş, tam olaraq 1400 il sonrasından bəhs etmişdir. Bu tarix miladi 1980-ci ilə uyğun gəlir. Hicri 13-cü əsrin mücəddidi olaraq hicri 14-ə əsrə qədər mücəddidlik vəzifəsini yerinə yetirən Bədiüzzaman, hicri 1379, yəni miladi 1960-cı ildə vəfat etmişdir. Buna görə də Bədiüzzaman hz. Mehdinin öz yaşadığı dövrdən xeyli sonra gələcəyini bildirmişdir.

Bədiüzzaman "1400 İL SONRA" tarixini verərək eyni zamanda "14 və 15-ci əsrlər arasında vəzifə icra edəcək mücəddidin də hz. Mehdi olduğunu" xəbər verir.

Bununla yanaşı, Bədiüzzaman hz. Mehdi haqqında “1400 il sonra GƏLƏCƏK” ifadəsindən istifadə edərək, hz. Mehdinin dəqiq “gələcəyini” müjdələyir. Bədiüzzaman bu sözləri ilə hz. Mehdinin şəxsi-mənəvi olmadığını, “ifadə edilən tarixdə gələcək bir şəxs olduğunu” açıqlayır.

Bədiüzzaman verdiyi bu məlumatla hz. Mehdinin keçmişdə və Bədiüzzamanın öz yaşadığı dövrdə hələ gəlmədiyi mövzusunu da açıqlayır. Çünki diqqət yetirilsə, Bədiüzzaman “hz. Mehdi gəldi, ya da gəlib” demir, “gələcək zaman” ifadə edən sözlərdən istifadə edir və “GƏLƏCƏK” deyir.

Bədiüzzaman hz. Mehdi üçün “HƏQİQƏT” sözündən istifadə etmişdir. Bədiüzzaman bu ifadəsi ilə hz. Mehdinin zühurunun həqiqət, yəni heç bir şübhəyə yer buraxmayacaq qədər “QƏTİ HƏQİQƏT” olduğunu ifadə etmişdir.

Bədiüzzaman bu sözü ilə hz. Mehdinin gəlişindən əvvəl Mehdi olduğu zənn edilən şəxslərin əksinə, “1400 il sonra gələcək olan Mehdinin həqiqət” olacağını ifadə etmişdir. Yəni bu mübarək şəxsin, Peyğəmbərimiz (s.ə.v)-in hədislərində müjdələdiyi bütün xüsusiyyətlərə sahib olan “Əsl Mehdi” olacağını və bu xüsusiyyətləri ilə Mehdi zənn edilən şəxslərdən fərqlənəcəyini xatırlatmışdır.

Bədiüzzaman daha əvvəl də bir çox insanın hz. Mehdinin zühur tarixi ilə əlaqədar fərqli fikirlərə düşdüklərini və bu mübarək şəxsin “öz yaşadıqları əsrə yaxın” tarixdə gələcəyini zənn etdiklərini ifadə etmişdir. Ancaq Bədiüzzaman “KARİB (YAXIN) ZƏNN EDİBLƏR” deyərək bu şəxslərin hz. Mehdinin əvvəlki tarixlərdə çıxmış ola biləcəyini düşünməklə yalnız “zənn etdiklərini”, ancaq yanıldıqlarını xatırlatmışdır. Əslində isə hz. Mehdinin “hicri 1400-cü ildə” gələcəyini və bu tarixdən sonra fəaliyyətlərinə başlayacağını bildirmişdir. Bədiüzzamanın verdiyi

bu tarix Peyğəmbərimiz (s.ə.v)-in hədislərində verilən məlumatlara uyğundur.

## 5) Hz. Mehdi nə vaxt zühur edəcək?

> "HƏQİQİ GÖZLƏNİLƏN və BİR ƏSR SONRA GƏLƏCƏK O ŞƏXS də bu zamanda gəlsə..." (Kastamonu Lahikası, səh. 57)

Bədiüzzaman Səid Nursi hz. Mehdinin hələ gəlmədiyini, müsəlmanlar tərəfindən gözlənildiyini və öz yaşadığı dövrdən bir əsr sonra gələcəyini bildirir.

Bədiüzzaman "HƏQİQİ GÖZLƏNİLƏN" sözləri ilə hz. Mehdinin "HƏLƏ GÖZLƏNİLDİYİNİ" ifadə edir və bu mübarək şəxsin onun dövründə "HƏLƏ GƏLMƏDİYİNİ" ifadə edir. Əgər Bədiüzzaman hz. Mehdinin öz yaşadığı dövrdə gəldiyini düşünsəydi, şübhəsiz ki bu ifadədən istifadə etməzdi. "Həqiqi gözlənilən" sözünün əvəzinə "gəlmiş" və ya "gələn" deyərdi. Buna görə də Bədiüzzaman bu sözləri ilə hz. Mehdinin hələ gəlmədiyini və gəlməsinin bütün İslam aləmi tərəfindən gözlənildiyini vurğulayır.

Bədiüzzaman hicri 1300-cü illərdə yaşamışdır. Onu yaşadığı dövrdə yox, yəni hicri 1400-cü illər hz. Mehdinin çıxış zamanıdır.

Bununla yanaşı, Bədiüzzaman burada istifadə etdiyi "HƏQİQİ" sözü ilə də hz. Mehdinin zühurunun nə qədər qəti həqiqət olduğunu ifadə edir.

Bədiüzzaman burada hz. Mehdi üçün bir daha "GƏLƏCƏK" sözündən istifadə etmiş və onun özünün yaşadığı dövrdə hələ gəlmədiyini və "SONRA GƏLƏCƏYİNİ" təkrar ifadə etmişdir. Bu sözü ilə eyni zamanda hz. Mehdinin "mənəvi şəxs" deyil, "GƏLMƏSİ GÖZLƏNİLƏN BİR İNSAN" olduğunu da bir daha vurğulamışdır.

Bununla yanaşı, Bədiüzzaman bu sözündə, gəlməsi gözlənilən bu mübarək şəxsin zühurunu da müjdələyir. Hz. Mehdinin "ÖZÜNDƏN BİR ƏSR SONRA, YƏNİ HİCRİ 1400-CÜ İLLƏRDƏ" ortaya çıxacağını xəbər verir.

Şübhəsiz ki, əgər Bədiüzzaman hz. Mehdinin onun dövründə yaşadığını düşünsəydi, belə uzaq tarix verməz, əksinə, açıq şəkildə ifadə edərdi. Deməli, Bədiüzzamanın bu mövzuda gəldiyi qənaət heç bir etiraza yer buraxmayacaq qədər qətidir.

Bədiüzzamanın ifadəsində bildirdiyi "səhabə dövründən 1400 il sonra" hicri 1400-cü illərin əvvəllərinə, yəni miladi 1979-1980-ci illərə təsadüf edir.

Bədiüzzaman hicri 1327-ci ildə Şamda Əməvi Məscidində on min nəfərə verdiyi xütbəsində, hicri 1371-ci ildən sonra İslam aləminin gələcəyi haqqında açıqlamalar verir, Axırzamandan müxtəlif tarixlər verərək, gözlənilən Mehdinin mübarizə zamanlarına diqqət çəkir. Bədiüzzaman hz. Mehdinin vəzifəyə başlaması və inkarçı zehniyyəti fikirlə məğlub etməsi ilə əlaqədar olaraq bu tarixləri bildirir:

"Ta 1371-ci ildən sonrakı aləmi İslamın müqəddəratına (qədərinə) nəzər edən (göz atan) Hütbə-i Şamiyədəki həqiqətlər... Bəli indi olmasa da 30-40 İL SONRA elm və həqiqi bacarıq (müsbət elmlər və sənət, elmdə öyrənilən məlumatlar) və mədəniyyətin üstünlüklərini o üç güc ilə təchiz edib, cihazatını verib o doqquz maneəni məğlub edib dağıtmaq üçün həqiqəti araşdırma cəhdi, insaf və insan sevgisini o doqquz düşmən tayfasının cəbhəsinə göndərmiş, inşaAllah, YARIM ƏSR SONRA onları darmadağın edəcək". (Hutbe-i Şamiye, 25)

Şamda etdiyi bu çıxışda hicri 1371-ci ildən sonra yaşanacaq hadisələrə diqqət çəkərək, hz. Mehdinin vəzifəyə başlamasının 1371-ci ildən 30-40 il sonra olacağını bildirmişdir. Bu tarix isə hicri 1401-1411, miladi olaraq da 1980-1990-cı illərin arasıdır.

Yenə eyni çıxışda Bədiüzzaman hz. Mehdinin inkarçı fikir sistemini, fəlsəfə, elm və mədəniyyətin imkanları sayəsində fikirlə susduracağını

xəbər vermişdir. Bu fikri üstünlüyün tarixi olaraq da 1371-ci ildən yarım əsr sonrasını bildirmişdir. Bu da hicri 1421, yəni miladi 2001-ci il deməkdir.

Bədiüzzamanın Axırzamanla əlaqədar başqa açıqlaması da belədir:

"YETMİŞ BİRDƏ FƏCR-İ SADİQ (dan yerinin ağarması, Günəş çıxmazdan əvvəlki qırmızılıq, səhər vaxtı) və ya başlayacaq. Əgər bu, fəcr-i kazib (səhərə qarşı üfüqdə yayılmağa başlayan birinci qırmızılıq) da olsa, OTUZ-QIRX İL SONRA FƏCR-İ SADİK (fəcr-i kazibden sonra yayılmağa başlayan ikinci işıqlanma) ÇIXACAQ." (Hutbe-i Şamiye, 23)

Bədiüzzamana görə fəcr-i sadiqin çıxacağı illər:

**1371 + 30 = 1401 = 1981**

**1371 + 40 = 1411 = 1991**

Bədiüzzaman bu izahına görə haqqın qarşısında batili təmsil edən düşüncə olan ateizmin və materialist fəlsəfənin çökdürülməyə başlamasının 1981-1991-ci illərdə, fikirlə tam mənası ilə susdurulmağa başlamasının isə 2001-ci ildə olacağına işarə etmişdir və bunun artaraq davam etməsi 2010-cu ilə qədər davam edəcək (doğrusunu Allah bilir).

## 6) Hz. Mehdi harada zühur edəcək?

"HZ. MEHDİ KİMİ ŞƏXSLƏR haqqındakı rəvayətlərin fərqləri və sirri budur ki: Hədisləri açıqlayanlar hədis mətnlərindəki şərhlərinə və istinbatlarına (gizli mənaları meydana çıxarmalarına) tətbiq ediblər. Məsələn: MƏRKƏZİ SƏLTƏNƏT o vaxt Şamda və ya Mədinədə olduğu üçün hadisələri hz. Mehdiyye və ya Süfyaniyyəni (Hz. Mehdi və Süfyan ilə əlaqədar hadisələri) MƏRKƏZİ SƏLTƏNƏT ətrafında olan Bəsrə, Kufə, Şam kimi yerlərdə təsəvvür (düşünərək) edərək ö cür təfsir ediblər (açıqlayıblar)." (Sözlər, səh. 359)

Bədiüzzaman son səltənət və Xəlifəliyin mərkəzi İstanbulda olduğu üçün hz. Mehdi ilə əlaqədar hadisələrin də bu şəhərdə olacağını bildirmişdir.

Peyğəmbərimiz (s.ə.v) hədislərində özündən sonra gələcək bir çox şəxs olacağını bildirmişdir. Bu şəxslərin bəziləri gəlmiş, vəzifələrini icra edib vəfat ediblər. Hər əsrin əvvəlində göndərilən mücəddidlər bunlardan bəziləridir. Peyğəmbərimiz (s.ə.v)-in gələcəyini xəbər verdiyi şəxslərin bəziləri də hələ də gözlənilir. Bədiüzzaman da əsərlərində hələ də gözlənilən bu Axırzaman şəxsləri haqqında hədislər istiqamətində təfərrüatlı məlumatlar vermişdir. Hz. İsa və hz. Mehdi ilə yanaşı Dəccal və Süfyan (hədislərdə Axırzamanda İslam dünyası içərisində ortaya çıxacağı və hz. Mehdiyə qarşı mübarizə edəcəyi bildirilən və Süfyani Dəccal olaraq xatırlanan şəxs) kimi inkara əsaslanan mübarizə aparacaq Axırzaman şəxsləri də Bədiüzzamanın məlumat verdiyi bu şəxslər arasındadır.

Bədiüzzaman buradakı "HZ. MEHDİ KİMİ ŞƏXSLƏRİN" sözləri ilə əvvəlcə çox açıq şəkildə hz. Mehdinin mənəvi varlıq olmadığını, "BİR ŞƏXS OLDUĞUNU" ifadə etmişdir. Bədiüzzaman bu ifadəsi ilə üstəlik hz. Mehdi kimi, digər Axırzaman şəxslərinin də mənəvi şəxsiyyətlər olmadıqlarını,

eyni şəkildə "BİR ŞƏXS" olduqlarını açıqlamışdır. Şübhəsiz ki, Bədiüzzamanın bu sözləri, Axırzaman şəxslərindən bəzilərinin "şəxs", bəzilərinin isə "şəxsi-mənəvi" olaraq gələcəkləri iddialarını etibarsız edir. Çünki Bədiüzzaman "hz. Mehdi kimi şəxslər" sözləri ilə bunların hamısını əhatə edən və hamısını "ŞƏXS" kimi xarakterizə edən ifadədən istifadə edir. Necə ki, Bədiüzzaman əsərlərində Dəccal və Süfyanın şəxs olduqlarını nə qədər dəqiq şəkildə açıqlamışdırsa, hz. İsa və hz. Mehdi mövzusunda da bu həqiqəti o qədər açıq və aydın ifadələrlə dilə gətirmişdir. Dəccalın da fiziki xüsusiyyətlərini izah etmiş, hz. İsa və hz. Mehdinin də fiziki xüsusiyyətlərini təsvir etmişdir. Buna görə də hz. İsa və hz. Mehdinin şəxsi-mənəvi olacaqları düşüncəsi Bədiüzzamanın bu açıqlamalarının hamısına ziddir. Bədiüzzaman bu sözündə hz. Mehdi haqqında şəxs sözündən istifadə edərək bəhs edir və əks düşüncələrin etibarsızlığını ortaya qoyur.

Peyğəmbərimiz (s.ə.v)-in hədislərini təfsir edənlər o dövrlərdə səltənətin mərkəzi Bəsrə, Şam, Kufə kimi yerlərdə olduğu üçün hz. Mehdi ilə əlaqədar hadisələrin bu ərazilərdə həyata keçəcəyini düşünüblər. Ancaq Bədiüzzaman son səltənət və Xəlifəliyin mərkəzi İstanbulda olduğu üçün hz. Mehdi ilə əlaqədar hadisələrin də bu şəhərdə olacağını bildirmişdir. Bu ifadələrlə Bədiüzzaman Axırzaman ilə əlaqədar rəvayət və açıqlamaların daha yaxşı başa düşülməsini təmin edir.

## 7) Hz. Mehdini digər mücəddidlərdən fərqləndirən xüsusiyyətlər nələrdir?

"Hərçənd HƏR ƏSRDƏ HİDAYƏT EDƏN, BİR NÖV MEHDİ VƏ MÜCƏDDİD GƏLİR VƏ GƏLMİŞDİR. Lakin HƏR BİRİ ÜÇ VƏZİFƏDƏN BİRİNİ BİR CƏHƏTDƏ (baxımdan) İCRA ETDİYİNƏ GÖRƏ (səbəbi ilə) AXIRZAMANIN BÖYÜK MEHDİSİ ÜNVANINI ALMAMIŞDIR." (Emirdağ Lahikası, səh. 260)

Bədiüzzaman bu sözündə, Quran əxlaqını dünyada hakim etmək məqsədi ilə əvvəlki əsrlərdə də bəzi Müsəlman şəxslərin gəldiyini, ancaq bunların heç birinin Axırzamanda hz. Mehdinin edəcəyi üç əhəmiyyətli vəzifəni bir yerdə yerinə yetirə bilmədiklərini ifadə etmişdir.

Bədiüzzaman bu sözü ilə bir neçə əhəmiyyətli mövzuya aydınlıq gətirmişdir. Bədiüzzaman əvvəlcə hz. Peyğəmbərimiz (s.ə.v)-in hədislərinə əsaslanaraq hər yüz ilin əvvəlində bir mücəddid (yeniləyici) göndəriləcəyini bildirmişdir. Bədiüzzaman Risalələrdə hz. Mehdinin də hicri 14-cü əsrin əvvəlində gələcəyini və 14 və 15-ci əsrlər arasındakı mücəddid olacağını ifadə etmişdir.

Bədiüzzaman bu sözü ilə keçmiş dövrlərdə göndərilmiş mücəddidlər ilə hz. Mehdi arasındakı fərqi açıqlamış və hz. Mehdinin hansı xüsusiyyəti ilə bu mücəddidlərdən fərqləndirilə biləcəyini bildirmişdir. Bədiüzzaman əsərlərində hz. Mehdidən əvvəl gələn mücəddidlərin, onun üç vəzifəsindən birini yerinə yetirdiklərini və bu baxımdan "bir növ Mehdi və mücəddid vəzifəsini boynuna götürdüklərini" söyləmişdir. Ancaq Bədiüzzaman yuxarıda bəhs etdiyi üç vəzifənin üçünü birdən yerinə yetirəcək şəxsin yalnız "BÖYÜK MEHDİ" olacağını və bu xüsusiyyəti ilə digər mücəddidlərdən fərqlənəcəyini ifadə etmişdir. Bədiüzzamanın

istifadə etdiyi "BİR NÖV MEHDİ" ifadəsi də bu vəziyyəti açıqlayır. Bədiüzzaman keçmişdə gələn və hz. Mehdinin üç böyük vəzifəsindən yalnız birini icra edən şəxslərin əslində Axırzamanın gözlənilən Mehdisi olmadıqlarını, bu şəxsləri "bir növ mehdi" olaraq xarakterizə edərək ifadə etmişdir.

Bədiüzzaman sözlərində iki ayrı növ Mehdi olduğunu ifadə etmişdir. Bunlardan birincisini, "sabiq (əvvəlki) Mehdilər", digərini isə Axırzamanda gələcək "BÖYÜK MEHDİ" adlandırmışdır. Bədiüzzaman Səid Nursi hz. Mehdinin edəcəyi fəaliyyətləri saymış və bunları ondan başqa heç kimin edə bilməyəcəyini ifadə etmişdir. Buna görə bu əhəmiyyətli vəzifələrin yerinə yetirilməsinə vəsilə olan şəxsə "BÖYÜK MEHDİ" demişdir. Bədiüzzaman əsərlərində özü də daxil olmaqla əvvəlki dövrlərdə gələn, sabiq mehdilər olaraq adlandırdığı mücəddidlərin bu üç vəzifəni yerinə yetirə bilmədikləri üçün Böyük Mehdi ola bilməyəcəklərini izah etmişdir. Bədiüzzaman əsərlərində bu şəxslərin böyük Mehdi ünvanını ala bilməmələrinin bir başqa səbəbinin isə, bu şəxslərin Peyğəmbərimiz (s.ə.v)-in hədislərində ifadə etdiyi xüsusiyyətlərə uyğun gəlməmələri olduğunu bildirmişdir.

## 8) Hz. Mehdi seyid olacaqmı?

> "MƏN SEYİD (Peyğəmbərimiz (s.ə.v)-in soyundan) DEYİLƏM. Bu zamanda nəsillər bilinmir. Halbuki AXIRZAMANIN O BÖYÜK ŞƏXSİ ALİ BEYTDƏN (Peyğəmbərimiz (s.ə.v)-in soyundan) OLACAQ." (Emirdağ Lahikası, səh. 247)

Hz. Mehdinin hədislərdə bildirilən ən əhəmiyyətli xüsusiyyətlərindən biri də "SEYİD", yəni Peyğəmbərimiz (s.ə.v)-in soyundan olmasıdır:

"Qiyamətin qopması üçün bir gündən çox vaxt qalmasa da, Allah MƏNİM ƏHLİ BEYTİMDƏN (SOYUMDAN) BİR ŞƏXSİ (hz. Mehdini) göndərəcək." (Süneni Əbu Davud, 5/92)

Bədiüzzaman da bu sözündə özünün Peyğəmbərimiz (s.ə.v)-in soyundan olmadığını, hz. Mehdinin isə bu mübarək soydan olacağını ifadə etmişdir.

Bədiüzzaman seyid deyil və seyid olmamasının onun Mehdi olmayacağının dəlillərindən biri olduğunu ifadə edir. Şübhəsiz ki, insana sual verilməsinin səbəbi, bu mövzu haqqında doğru məlumat əldə etməkdir. Bədiüzzaman Səid Nursidən də Mehdi olub olmadığının soruşulmasının səbəbi doğruları öyrənməkdir. Bu sual qarşısında "Xeyr, mən Mehdi deyiləm" deyirsə və bunun onlarla dəlilini qarşıya qoyursa, buna inanmaq lazımdır. Çünki Bədiüzzaman çox açıq şəkildə bu mövzuya cavab vermiş və "mən seyid deyiləm" demişdir.

Üstəlik, Bədiüzzaman seyid olsaydı, bunu gizlətməsi üçün heç bir səbəb yox idi. Çünki seyid olmaq, gizlədiləsi xüsusiyyət deyil. Əksinə, Peyğəmbərimiz (s.ə.v)-in nəslindən olmaq müsəlmanlar üçün böyük şərəfdir. Buna görə Bədiüzzaman seyid olsaydı, bunu heç bir şəkildə gizlətməz və açıq şəkildə ifadə edərdi. Peyğəmbərimiz (s.ə.v)-in soyundan olduğunu ifadə etməkdən böyük qürur duyardı. Ondan belə sual soruşanda "Bəli seyidəm, amma Mehdi deyiləm" deyərdi. Çünki

Bədiüzzaman şəxsən öz əsərlərində Peyğəmbərimiz (s.ə.v)-in hədisini xatırladaraq "seyid olan bir şəxsin seyidliyini gizlətməsinin Quran əxlaqına uyğun olmadığını" ifadə etmişdir.

**"Seyid olmayan seyidəm desə və seyid olan deyiləm desə, iksi də duhul və huruc (üsyan) haram olduğu kimi harama girmiş olar.. hədis və Quranda da çox və ya nöqsan etmək qadağan edilmişdir." (Muhakemat, səh. 52)**

Bədiüzzamanın bu sözü çox açıqdır. Peyğəmbərimiz (s.ə.v)-in hədisində bildirildiyi kimi, İslam əxlaqına görə seyid olan bir şəxs səbəb nə olursa olsun, bunu gizlədə bilməz. Seyid olmayan bir insan da mən seyidəm deyə bilməz. Bu vəziyyətdə Bədiüzzaman kimi qiymətli və üstün əxlaqlı bir şəxsin, seyidliyini gizlətdiyi yanaşması çox yanlış düşüncədir. Bununla yanaşı hər seyid olan şəxs mütləq Mehdi olacaq deyə bir vəziyyət də yoxdur. Dünya üzərində milyonlarla seyid olan insan var. Bir insanın seyid olması Mehdi olmasını tələb etmədiyi üçün, hər insan bu həqiqətləri rahatlıqla dilə gətirə bilər. Üstəlik, Bədiüzzaman "Mənim bu mövzudakı tək əskikliyim seyidliyimdir, əgər seyid olsaydım Mehdi olardım" da deməmişdir. Əksinə Bədiüzzaman hz. Mehdinin bütün xüsusiyyətlərini, edəcəyi bənzərsiz fəaliyyətləri uzun-uzun açıqlamış və bunların heç birinin öz yaşadığı dövrdə hələ həyata keçmədiyini ifadə etmişdir.

## 9) Bədiüzzamanı Mehdi zənn edənlərə Bədiüzzaman nə demişdir?

"RİSALƏ-İ NURUN ŞƏXSİ MƏNƏVİSİNİ HAQLI OLARAQ HZ. MEHDİ KİMİ QƏBUL EDİRLƏR. O şəxsi-mənəvinin də bir nümayəndəsi Nur tələbələrinin həmrəyliyindən gələn bir şəxsi-mənəvisi və o şəxsi-mənəvinin bir nümayəndəsi olan BİÇARƏ TƏRCÜMANI ZƏNN ETDİKLƏRİNDƏN, BƏZƏN O İSMİ (hz. Mehdi adını) ONA VERİRLƏR. Lakin bu, YANLIŞDIR..." (Emirdağ Lahikası, səh. 266)

Bədiüzzaman Risalə-i Nurun şəxsi-mənəvisinin və bu əsərlərin müəllifi olaraq özünün də bəzən hz. Mehdi zənn edildiyinin, ancaq bunun bir qarışdırma və yanlış olduğunu ifadə etmişdir.

Bədiüzzaman burada "HAQLI OLARAQ" kəliməsindən Risalə-i Nur camaatının Mehdi qəbul edilməsini haqlı hesab etdiyini vurğulamaq üçün deyil, belə düşüncənin asanlıqla anlaşılan və üzrlü hesab edilən yanlış olduğunu vurğulamaq üçün istifadə etmişdir. Mövzunun davamında bu məna asanlıqla aydın olur. Bədiüzzaman əvvəlki sətirlərdə açıqlanan sözlərində də bu yanılmanın hz. Mehdinin dünya səviyyəsində yerinə yetirəcəyi iki böyük vəzifəsinin gözardı edilməsindən qaynaqlandığını ifadə edərək bunun "HAQLI DÜŞÜNCƏ OLMADIĞINI" açıqlamışdır.

Bədiüzzaman Risalələri qələmə alan şəxs olaraq, Risalə-i Nurlar kimi özünün də hz. Mehdi olaraq qiymətləndirildiyini, ancaq bunun "BİR ZƏNN" olduğunu ifadə etmişdir. "Zənn etmə" sözü həqiqət deyil, yanılma və aldanma ifadə edən sözdür. Bədiüzzaman, tələbələrinin yalnız hz. Mehdinin əhəmiyyətli vəzifəsi olan iman həqiqətlərini izah etməsini qiymətləndirdiyini, ancaq hz. Mehdinin digər iki vəzifəsi olan "İslam Birliyinin təmin edilməsi, bütün İslam dünyasının lideri olması və İslam

əxlaqının dünyaya hakim edilməsi"nin onda olmayan xüsusiyyət olduğunun diqqətə alınmadığını söyləmişdir. Buna görə Risalə-i Nura və ona edilən Mehdilik yaraşdırmasının yalnız "zənn"dən ibarət olduğunu ifadə etmişdir.

Bununla yanaşı, Bədiüzzaman "zənn edirlər" deyərək burada bir daha özünü bu düşüncədəki insanlara daxil etmədiyini və onlarla eyni fikri paylaşmadığını ifadə edir.

Bədiüzzaman özünün və ya Risalə-i Nurun Mehdi olaraq qəbul edilməsinin "İLTİBAS" olduğunu ifadə etmişdir. "İltibas" sözünün mənası "BƏNZƏR ŞEYLƏRİ BİR-BİRİNƏ QARIŞDIRMAQ"dır. (Yeni Lüğət, səh. 267) Buna görə də burada bir-birinə qarışdırılan ancaq əslində bir-birindən fərqli olan iki anlayış vardır. Bədiüzzaman Risalə-i Nur, ya da özünün hz. Mehdi ola biləcəyinin "zənn edildiyini"; ancaq əslində bunun "qarışdırıldığını" ifadə edir.

Bədiüzzaman bu qarışıqlığın, Risalə-i Nurun, hz. Mehdinin üç təməl vəzifəsindən biri olan "imanı qurtarmaq" vəzifəsini boynuna götürməsindən qaynaqlandığını açıqlamışdır. Bədiüzzamanın açıqladığı kimi tarix boyunca göndərilmiş bütün mücəddidlər hz. Mehdinin vəzifələrindən yalnız birini ediblər. Ancaq Bədiüzzaman da daxil olmaqla "üç vəzifə, heç bir mücəddid tərəfindən eyni anda yerinə yetirilməmişdir".

Buna görə də tarixdə Mehdilik mövzusunda bunun kimi bənzətmələr bir çox adama edilmişdir. Ancaq Bədiüzzaman "hz. Mehdinin hamısını bir yerdə və dünya səviyyəsində həyata keçirəcəyi vəzifələrini" izah edərək, bu Mehdilik iddialarının heç birinin doğru olmadığını və hz. Mehdinin irəlidə gələcək bir şəxs olduğunu açıqlamışdır.

Risalə-i Nura və Bədiüzzamana edilən bu bənzətmədə də eyni vəziyyətdir. Bədiüzzaman hz. Mehdi ilə əlaqədar Peyğəmbərimiz (s.ə.v)-in hədislərindəki və İslam alimlərinin açıqlamalarındakı izahlar və xüsusiyyətlərinə dair verilən məlumatlar diqqətə alınmadığı üçün "qarışdırıldığını" ifadə edir.

Bədiüzzaman, özünün və ya Risalə-i Nurun Mehdi olaraq qəbul edilməsinin "SEHİV" olduğunu söyləmişdir. "SEHİV" sözün mənası "XƏTA, YANLIŞ, yanılma" deməkdir (Yeni Lüğət, səh. 617). Bədiüzzaman özünə və Risalə-i Nura hz. Mehdi adının verilməsinin "qarışdırma" olacağını ifadə etməklə kifayətlənmir, cümləsinin davamında bunun bir "sehiv", yəni "səhv" olacağını da vurğulayır. Bu, çox açıq ifadədir. Əgər Bədiüzzaman özünə və Risalə-i Nurun şəxsi-mənəvisinə edilən Mehdilik iddialarında hər hansı bir düzgünlük payı görsəydi, şübhəsiz ki bunu "səhv" olaraq xarakterizə etməzdi. Bu iddiaların yerində olduğunu ifadə edən sözlərdən açıq şəkildə istifadə edərdi. Bunun səhv olduğunu ifadə etməsi, Bədiüzzamanın bu mövzudakı qənaətini çox açıq və heç bir etiraza yer buraxmayacaq şəkildə ortaya qoyur. Bədiüzzaman Risalə-i Nurun, ya da özünün hz. Mehdi ola biləcəyi fikrini qəbul etmir.

FƏSİL

# Suallar 11–20

## 10) Hz. Mehdi, hz. İsa ilə birgə fəaliyyət göstərəcəkmi və Hz. İsa (ə.s) hz. Mehdinin arxasında namaz qılıbmı?

"Həətta "HƏZRƏTİ İSA ƏLEYHİSSALAM GƏLİB, NAMAZDA HZ. MEHDİYƏ İKTİDA EDƏR, TABE OLAR" deyə rəvayəti BU İTTİFAQA (birləşməyə) VƏ HƏQİQƏTİ KURANİYƏNİN METBUİYƏTİNƏ VƏ HAKİMİYYƏTİNƏ (Quran həqiqətlərinə əməl edilməsinə və tabe olunmasına) İŞARƏ EDİR." (Şüalar, səh. 493)

Peyğəmbər (s.ə.v) bir hədisi şərifində hz. İsanın hz. Mehdinin arxasında namaz qılacağını bildirmişdir:

"İmamları saleh bir insan olan Mehdi olduğu halda Beytül Məqdisə sığınarlar. Orada imamları onlara səhər namazını qıldırmaq üçün önə keçdiyi vaxt bir də görərlər ki, Məryəm oğlu İsa səhər vaxtında enmişdir. Mehdi hz. İsanı önə keçirmək üçün arxaya çəkilər. Hz. İsa əlini onun çiyinlərinə qoyar və ona deyər ki, "Önə keç və namazı qıldır. Çünki qamət (fərz namazı qılmaq üçün oxunan azan; namaza başlama işarəsi) sənin üçün gətirilmişdir..." (Ebu Rafidən rəvayət edilmişdir; İmam Şarani, "Ölüm, Kıyamet, Ahiret ve Ahir Zaman Alametleri", "Bedir" nəşriyyat, səh. 495-496)

Bədiüzzaman da Peyğəmbərimiz (s.ə.v)-in bu haqda hədisinə diqqət çəkir, bu hadisənin hz. İsa və hz. Mehdinin çıxışının əhəmiyyətli əlamətlərindən biri olduğunu xatırladır. Bədiüzzaman sözlərində hz. İsa və hz. Mehdi dövründə, Allahın icazəsi ilə, İslam əxlaqının bütün dünyaya

hakim olacağını ifadə edir. Bu hakimiyyətə hz. İsa və hz. Mehdinin ittifaqı ilə icra ediləcək böyük fikri mübarizənin vəsilə olacağını ifadə edir.

Bədiüzzaman bu sözündə Peyğəmbərimiz (s.ə.v)-in səhih hədislərinə uyğun olaraq "HZ. İSANIN, HZ. MEHDİ İLƏ BİRLİKDƏ NAMAZ QILACAĞINI" ifadə etmişdir. Namaz Rəbbimizin insanlar üçün fərz etdiyi bir ibadətdir. Şəxsi-mənəvilərin birlikdə namaz qılması, namazda imamlıq etmələri mümkün deyil. Bədiüzzaman da bu həqiqəti dərk edir və bu sözləri ilə hz. İsanın və hz. Mehdinin "BİR ŞƏXS" olaraq ortaya çıxacaqlarını xəbər verir. Hz. İsanın yer üzünə birinci gəlişində namaz ibadətini yerinə yetirdiyi kimi, ikinci gəlişində də, Allahın icazəsi ilə, bu ibadətinə davam edəcək. Quranda bu mövzu belə bildirilir:

> *(Körpə) dedi: "Həqiqətən, mən Allahın bəndəsiyəm. O mənə Kitabı (İncili) verdi və məni peyğəmbər etdi. Harada oluramsa olum, məni mübarək etdi və mənə yaşadığım müddətdə namaz qılıb zəkat verməyi əmr etdi.*
>
> **(Məryəm surəsi, 30-31)**

Axırzamanda hz. İsa və hz. Mehdinin mübarək şəxsləri ortaya çıxacaq, hz. İsa, hz. Mehdinin imamlığında namaz qılacaq, bu iki mübarək şəxsin edəcəkləri böyük fikri mübarizə nəticəsində İslam əxlaqı yer üzünə hakim olacaq. Bədiüzzaman bir çox səhih hədisdə yer alan bu mövzunu xatırladaraq, hz. İsa ilə hz. Mehdinin gələndə ittifaq edəcəklərini bildirir. Bunun üçün hər iki mübarək şəxs də eyni dövrdə ortaya çıxmalı və bir araya gəlməlidirlər. Ancaq Bədiüzzaman həyatda ikən belə hadisə baş verməmişdir.

Bədiüzzaman hz. İsa və hz. Mehdinin Quran əxlaqının bütün yer üzünə hakim olması üçün ittifaq edəcəklərini bildirmişdir. İki dinin birləşməsinin İslamiyyət üzərinə olacağını hədislərlə açıqlayan Bədiüzzaman, Quranın tabe olunan kitab olacağını, onun hökmlərinin etibarlı və hakim olacağını bildirmişdir. Bu ittifaq və bu böyük hadisələr hələ həyata keçməyib və hz. İsanın gəlişi və hz. Mehdi ilə birlikdə namaz qılmaları kimi, bu tarixi hadisə də bütün dünya müsəlmanları tərəfindən böyük həyəcanla gözlənilir.

## 11) Mehdilik mövzusunu rədd edənlər olacaqmı?

"Qiyamət əlamətlərindən, Axırzaman hadisələrindən və bəzi əməllərin fəzilət və savablarından bəhs edən hədisi-şərif tam aydın olmadığından, ağıllarına güvənən bəzi elm sahibləri, onların bəzisinə zəif və ya saxta (hədis) deyiblər. İMANI ZƏİF VƏ EQOİZMİ GÜCLÜ (güclü) olan bəzi şəxslər isə inkar ediblər." (Sözlər, səh. 355)

Bəzi insanlar hz. Mehdinin zühur edəcəyi inancına sahib olmalarına baxmayaraq, zaman keçdikcə bu inanclarında zəiflik göstərir və hz. Mehdinin zühuruna görə narahatlıq duyurlar.

Axırzaman ilə bağlı hadisələrin bəziləri hədislərdə bənzətmələr ilə açıqlanmışdır və xüsusi üslub daşıyır. Bədiüzzaman da bu cür hədisləri hər kəsin yaxşı anlaya bilmədiyini ifadə etmişdir. Xüsusilə, öz ağlına güvənən bəzi elm sahibi şəxslərin Axırzaman hədislərinə zəif hədis deyəcəklərini, imanı zəif və eqoist olan bəzi şəxslərin isə bu hədisləri anlaya bilmədikləri üçün, məzmununu da inkar edəcəklərini söyləyir.

Halbuki bilindiyi kimi, Peyğəmbərimiz (s.ə.v)-in Axırzamanda hz. Mehdinin zühuru mövzusundakı hədisləri çox yayılıb. Bunun mənası: Mehdiyyət haqqında söylənilən hədislər bu mövzuda yalan danışmaq məqsədi ilə aralarında razılığa gələ bilməyən şəxslərdən, bir çox fərqli kanal vasitəsi ilə hədis alimlərinə çatmışdır. Üstəlik, dinimizdə çox əhəmiyyətli qaynaq olaraq qəbul edilən "Kutubu Sittə"də də həzrəti Mehdi haqqında bir çox "səhih" hədis var. Kutubu Sittədən başqa digər hədis qaynaqlarında da mehdiyyət ilə əlaqədar bir çox səhih rəvayətlər nəql edilir. Bütün əhli sünnə alimləri həzrəti Mehdinin Axırzamanda gələcəyi mövzusunda razılığa gəliblər. Zühur yeri, zamanı, şəxsiyyəti və buna oxşar təfərrüatlar mövzusunda müxtəlif fərqli şərhlər edilsə də,

Peyğəmbərimiz (s.ə.v)-in müjdələdiyi bu şəxsin gələcəyi və İslam əxlaqını yer üzünə hakim edəcəyi haqqında mötəbər İslam alimləri arasında heç bir ziddiyyət yoxdur.

Bununla yanaşı, Peyğəmbərimiz (s.ə.v) hədislərində hz. Mehdinin zühurundan əvvəl bəzi şəxslərin "hz. Mehdi gəlməyəcəkmiş, hz. Mehdi yoxmuş" kimi sözlər sərf etmələrinin, ya da mehdiyyət mövzusunu rədd etmələrinin əslində hz. Mehdinin çıxış əlamətlərindən biri olduğunu bildirmişdir. Bu hədislərdən biri belədir:

> "İnsanların ümidsiz olduğu və "HEÇ MEHDİ YOX İMİŞ" dediyi sırada Allah Mehdini göndərər..." (Əli ibn Husaməddin əl-Muttaqi, Kitab-ul Burhan fi-Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 55)

## 12) Hz. İsanın tələbələrinin sayı çox, yoxsa az olacaq?

"İSA ƏLEYHİSSALAMI NURU İMAN İLƏ (nuru ilə) TANIYAN və TABE OLAN CAMAATI RUHANİYE-İ MÜCAHİDİNİN (mübarizə edən ruhani camaatının) KƏMİYYƏTİ (sayı) Dəccalın məktəb və əsgəri elmi və maddi ordularına nisbətən çox AZ VƏ KİÇİK olmasına işarədir (məqsədindədir)." (Şüalar, səh. 495)

Bədiüzzaman bu sözündə, hz. İsanı ikinci dəfə yer üzünə gələndə tanıyacaq və dəstək olan toplumun xüsusiyyətlərindən bəhs edir.

Bədiüzzaman bu sözündə hz. İsanın onu dəstəkləyən camaatı tərəfindən "İMANIN NURU İLƏ TANINACAĞI"dan bəhs etmiş, açıq şəkildə hz. İsanın "BİR ŞƏXS" olduğunu ifadə etmişdir. "TANINMA", "tanınacaq bir şəxs olduğunu" ifadə edir və Bədiüzzamanın mənəvi varlığı deyil, şəxsən hz. İsanı nəzərdə tutduğunu ortaya qoyur.

Bununla yanaşı, Bədiüzzaman bu sözləri ilə hz. İsanın və onun şəxsi-mənəvisinin bir-birindən ayrı anlayışlar olduğunu ifadə edir. Çünki Bədiüzzaman "hz. İsanı tanıyan bir qrup"dan bəhs edir, üstəlik, "hz. İsanın da bu qrup tərəfindən tanınacağını" bildirir. Bir şəxsi-mənəvinin digər şəxsi-mənəvini tanıması, ya da bir şəxsi-mənəvi tərəfindən tanınması mümkün deyil.

Bədiüzzamanın üzərində dayandığı bu həqiqət, bu iki problemin cavabı ilə bir daha ortaya çıxır:

**1) Bədiüzzaman kimin imanın nuru ilə tanınacağından bəhs etmişdir?**

**- Hz. İsanın.**

**2) Bədiüzzaman hz. İsanı kimlərin tanıyacağından bəhs etmişdir?**

**- Onu imanlarının nuru ilə tanıyan camaatının.**

Hz. İsa ilə eyni dövrdə yaşamaq, həvariləri kimi Allah yolunda bu mübarək şəxsin köməkçilərindən olmaq, bütün müsəlmanlar üçün şərəfdir. Hədislərdə və Bədiüzzamanın sözlərində ifadə edildiyi kimi Allah, hz. Mehdi və yanındakılara, hz. İsa və ona tabe olan az sayda inananla eyni safda fikri mübarizə icra etməyi nəsib edəcək. Bədiüzzaman əsərlərində bu haqq fikri mübarizənin özündən dərhal sonrakı dövrdə həyata keçəcəyini ifadə edərək hz. İsa və hz. Mehdinin zühurunun onun yaşadığı illərdə hələ baş vermədiyini ifadə etmişdir.

Bədiüzzaman bu sözlərində hz. İsanın onu dəstəkləyən, ona inanan və göstərdiyi yolu izləyən şəxslərdən ibarət bir camaatı olacağından bəhs edir. Hz. İsanın yüksək mənəviyyatını anlamaq, ancaq bu mübarək şəxsi qəbul edə biləcək tutumda mənəviyyata sahib insanlara nəsib olacaq. Bu camaat Bədiüzzaman tərəfindən "camaat-i ruhaniyə-i mücahidin" (mübarizə edən ruhani camaatının) sözləri ilə ifadə edilmişdir. Bədiüzzamanın da ifadə etdiyi kimi bu toplumun, ruhaniyyəti, mənəvi dərəcəsi yüksək və Allah yolunda fikri mübarizə edən, çalışan bir camaatdır.

Bədiüzzaman hz. İsanın bir lider olaraq başında olduğu toplumun sayının, Allahı inkar edən toplumla müqayisədə daha az və kiçik olduğunu bildirir. Uca Allahın Quranda bildirdiyi kimi, "... Nə qədər kiçik birlik,

daha çox olan bir birliyə Allahın icazəsiylə qalib gəlmişdir.” (Bəqərə Surəsi, 249). Axırzamanda da hz. İsa və hz. Mehdiyə bağlı sayları az, amma Allaha könüldən iman edən, saleh möminlər (Allahın icazəsi ilə) üstün gələcəklər, Məsih Dəccalın fitnəsini tam mənasıyla ortadan qaldıracaqlar.

## 13) Hz. Mehdinin tələbələrinin sayı çox, yoxsa az olacaq?

“Bu vəzifənin istinad etdiyi (əsaslandığı) güc və mənəvi ordusu tək ixlas, sədaqət və təsanüd (həmrəylik) sifətlərinə tam sahib olan bəzi şagirdlərdir (tələbələrdir). NƏ QƏDƏR AZ olsalar, mənəvi bir ordu qədər güclü və qiymətli sayılarlar.” (Emirdağ Lahikası, səh. 259)

Bədiüzzaman Səid Nursi sözlərində hz. Mehdi camaatının sayının az olacağını söyləmiş, ancaq sayları nə qədər az olsa da, hz. Mehdi camaatındakı şəxslərin hər birinin mənəvi çox güclü olacaqlarını ifadə etmişdir.

## 14) Hz. Mehdinin tələbələrinin xüsusiyyətləri nələrdir?

“Bu vəzifənin istinad etdiyi (əsaslandığı) güc və mənəvi ordusu tək ixlas, sədaqət və təsanüd (həmrəylik) sifətlərinə tam sahib olan bəzi şagirdlərdir (tələbələrdir). NƏ QƏDƏR AZ olsalar, mənəvi bir ordu qədər qüvvətli və qiymətli sayılarlar.” (Emirdağ Lahikası, səh. 259)

1) Hz. Mehdi camaatının sayının hədislərdə 313 nəfər olacağı ifadə edilmişdir. Belə olması da yenə cəmiyyətin əksəriyyəti tərəfindən tanına bilmədiklərini göstərir. İnsanları Allaha iman etməyə dəvət edən, dinə çox böyük xidmətlər verən belə qiymətli bir insana inananların sayının bu qədər az olması çox təəccüblüdür. Hədislərdə hz. Mehdiyə çox az insanın tabe olacağı belə bildirilir:

**“Məhəmməd ibn Hənəfi (r.ə)-dan rəvayət edildi ki: Sayları Bədir Səhabələri (313) qədərdir. Əvvəlkilər onları keçmədiyi kimi, sonrakılar da onlara yetişə bilməzlər. Onların sayları Talut ilə çayı keçənlər qədərdir.” (Kitab-ul Burhan Fi Əlaməti Mehdiyy-il Axır Zaman, səh. 57)**

**“Bədir döyüşündəki əsgərlər kimi 313 nəfərin əmrini əlində tutaraq ətrafa meydan oxuyacaq. Çünki bu 313 nəfər gecə abid (çox ibadət edən şəxs) gündüz qəhrəman xüsusiyyətini daşıyar.” (Kıyamet Alametleri, səh. 169)**

**“Aralarında qadınların da olduğu 314 nəfərdən ibarət qrupdurlar. Onlar hər zalıma qalib gələrlər. Onların ürəkləri dəmir kimidir və onlar gündüz aslan, gecə isə abiddirlər. Nə əvvəlkilər, nə də sonrakılar fədakarlıqda onlara yetişə bilməz.” (Kitab-ul Burhan Fi Əlamət-el Mehdiyy-il Axır Zaman, səh.57-68)**

**"Hz. Mehdiyə aralarında qadınların da olduğu 314 nəfər beyət edəcək." (əl-Kavlul Müxtəsər Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 25)**

Hədislərin işarələrinə görə Axırzamanda müsəlmanlara yönəldiləcək təzyiq mühiti, onların əleyhinə icra edilən təbliğatlar və atılan böhtanlara görə hz. Mehdiyə çox az insan tabe olacaqdır (doğrusunu Allah bilir).

Belə qiymətli şəxsin ətrafında saysız insan olmalı, insanlar ona kömək edə bilmək üçün böyük bir şövq və həyəcan içində yarışmalıdırlar. Ancaq dövrün Axırzaman olması, haqq ilə batilin yer dəyişdirməsi, insanların Quran əxlaqından uzaqlaşmaları əxlaqi korlanmanın çox yüksək səviyyəyə çatması, hz. Mehdinin camaatının sayının az, amma qətiyyətli şəxslərdən meydana gəlməsinə səbəb olacaq.

2) Sosial təzyiq, insanların tarix boyunca iman sahiblərinə kömək etmələrinə maneə törədən əhəmiyyətli səbəblərdən biridir. Quran ayələrində bu mövzuda hz. Musaya iman edən gənclər nümunə verilir. Ayədə bu şəkildə bildirilir:

> *"Firon və qövmünün işgəncə verməsindən qorxduqları üçün öz qövmündən Musaya yalnız bir dəstə (gənc) iman gətirdi. Çünki Firon həqiqətən, o yerin hökmdarı və həddi aşanlardan idi."*
>
> **(Yunis surəsi, 83)**

Yuxarıdakı ayədə hz. Musaya "Firon və qövmü bəlaya məruz qalmaq qorxusu ilə" iman edən heç kimin olmadığı bildirilir. İnsanlar hz. Musaya iman etsələr, təzyiqə məruz qalacaqlarını, yurdlarından sürgün ediləcəklərini, həbs olunub öldürüləcəklərini düşünürdülər. Bu qorxu səbəbi ilə də iman edənlərdən uzaq durmuş, başlarına pis şeylər gələcəyini düşündükləri üçün onlara yaxınlaşmamışlar. Halbuki hz. Musa

və onunla birlikdə olan saleh möminlər, Allahın icazəsi ilə çox şərəfli və mübarək həyat yaşayıblar. Axirətdə də gözəl əxlaqlarının, səbirlərinin, yaxşı davranışlarının qarşılığını ən gözəl şəkildə alacaqlarına ümid edirlər. Hədislərin işarələrinə görə eyni vəziyyət hz. Mehdinin ilk dövrlərində də olacaq, cəmiyyətin böyük təbəqəsi mənfəətlərinə zərər gəlməsin deyə hz. Mehdiyə yaxın olmaqdan, onu dəstəkləməkdən qaçacaqlar.

Ayədə xəbər verilən məlumatlardan biri də hz. Musaya yalnız qövmündən gənc toplumun iman etməsidir. Hədislərdə, hz. Mehdiyə də gənclərin tabe olacağına işarə edilir. Bu məlumatlara görə hz. Mehdinin camaatı sayca az, gənclərdən ibarət olacaq (doğrusunu Allah bilir). Hz. Mehdinin ətrafında gənclərin olacağına işarə edən hədislərdən bəziləri bu şəkildədir:

> "Mehdi bizdən Əhli Beytdən (soyumdan) bir gəncdir. Qocalarınız ona yetişməyəcək, gəncləriniz isə ona ümid edəcəklər. Allah dilədiyini edəcək." (Kitab-ül Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh.23)

> "Mehdinin bayraqdarı, saqqalı yüngül, rəngi sarı, kiçik gənc olacaq." (El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 51)

> "Onun bayraqdarı şərqdən Təmimi soyuna mənsub bir gənc olacaq." (El-Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 26)

## 15) Risalə-i Nuru kim daha yaxşı başa düşəcək?

"...Ta Axırzamanda, həyatın geniş dairəsində əsl sahibləri, yəni Mehdi və şagirləri Allahın icazəsi ilə gəlib, o dairəni genişləndirər və o toxumlar sünbüllənər. Biz də qəbrimizdə seyr edib Allaha şükür edərik." (Sikke-i Tasdik-i Gaybi, səh.172)

Bədiüzzaman bu sözlərində Risalə-i Nurun əsl sahiblərinin hz. Mehdi və şagirdləri olduğunu söyləyir. Buna görə də Bədiüzzamanın bu açıqlamalarına görə, "Risalə-i Nuru ən yaxşı anlayacaq və izah edəcək şəxs hz. Mehdi olacaq".

Risalə-i Nuru ən yaxşı anlayacaq şəxsin hz. Mehdi olacağı Bədiüzzamanın risalələrdəki digər sözlərindən də açıq şəkildə aydın olur. Bu sözlərindən birində Bədiüzzaman hz. Mehdinin bu xüsusiyyətini belə açıqlanır:

"Axırzamanın ən böyük fəsadı zamanında, əlbəttə ƏN BÖYÜK MÜCTƏHİD (ehtiyac olanda ayələrdən hökm çıxaran böyük İslam alimi), həm ƏN BÖYÜK MÜCƏDDİD (hər əsrin əvvəlində dini həqiqətləri dövrün ehtiyacına görə dərs vermək üçün göndərilən böyük İslam alimi, yeniləyən, yeniləyici), həm HAKİM, həm MEHDİ, həm MÜRŞİD (doğru yolu göstərən şəxs), həm QÜTB-İ ƏZƏM (müsəlmanların bağlandıqları böyük övliyalardan, zamanın ən böyük mürşidi) olaraq bir şəxsi-nuranini (nurlu şəxsi) göndərəcək və o şəxs də, Əhli Beyti Nəbəvidən (Peyğəmbərimiz (s.ə.v)-in soyundan) olacaq." (Məktubat, səh. 411-412)

Bədiüzzaman hz. Mehdinin "ən böyük müctəhid" (ehtiyac olanda ayələrdən hökm çıxaran böyük İslam alimi) və "ən böyük mücəddid" (hər əsrin əvvəlində dini həqiqətləri dövrün ehtiyacına görə öyrətmək üçün göndərilən böyük İslam alimi) sifətlərini daşıyacağını bildirmişdir. "Mücəddid" dini həqiqətləri dövrün ehtiyaclarına görə açıqlayan,

"müctəhid" də ehtiyac olanda ayələrdən hökm çıxaran böyük İslam alimi və öndəridir. Bu xüsusiyyətdəki böyük şəxslər, İslam cəmiyyətlərinə nümunə olmuş, yol göstərmiş, zamanın qütbü olmuş öndərlərdir. Bu öndərlərdən bəzisi ictihad etmə (hökmləri üsuluna uyğun olaraq Quran və hədislərdən istifadə ilə ortaya qoyma) və hökm vermə xüsusiyyətlərinə görə "məzhəb öndərləri" olublar; Müsəlmanlar da onlara tabe olublar. İmam Hənəfi, İmam Şafi, İmam Hənbəli, İmam Maliki bu öndərlərdən olub 4 məzhəbin qurucularıdır. Bütün əhli sünnə onların verdiyi hökmlərlə əməl edir. Bədiüzzaman bu "müctəhid və mücəddidlərin ən böyüklərinin isə hz. Mehdi olacağını" ifadə etmişdir. Bu da "Hz. Mehdinin ictihad etməyə (hökmləri üsuluna uyğun olaraq Quran və hədislərdən istifadə ilə ortaya qoyma) və hökm verməyə, dini həqiqətləri şərh etmək üçün ən səlahiyyətli şəxs olaraq Risalə-i Nuru da ən yaxşı anlayacaq və açıqlayacaq şəxs olacağını" irəli sürür.

## 16) Risalə-i Nurun batini təfsirə ehtiyacı varmı?

Bədiüzzaman sözlərinə gizli mənalar yükləməmiş; düzgün izah ilə demək istədiklərini səmimi olaraq ifadə etmişdir. Quranın təfsiri olduğunu ifadə etdiyi Risalə-i Nuru ayrıca təfsir etməyə ehtiyac yoxdur.

Bədiüzzaman bu mövzunu belə açıqlamışdır:

> "Risalə-i Nurun hər kitabı bir Səiddir. Siz hansı kitaba baxsanız mənimlə qarşı-qarşıya görüşməkdən on dəfə çox faydalanar, həm də mənimlə görüşmüş olarsınız. Risalə-i Nur olduğu üçün mənə heç ehtiyac qalmır." (Emirdağ Lahikası, səh. 159)

Deməli, risalələr Bədiüzzamanın bütün mövzulardakı qənaətlərini ən açıq və doğru şəkildə əks etdirir. Axırzaman hz. İsanın və hz. Mehdinin gəlişi və İslam əxlaqının hakimiyyəti mövzularında da risalələrdəki açıqlamalar, Bədiüzzamanın sözlərinin aydın ola bilməsi üçün tamamilə kifayətdir.

Ancaq buna baxmayaraq, bəzi kütlələrdə Bədiüzzamanın açıq izahatının ardında bir də batini mənalar olduğu; buna görə də Risalə-i Nur Külliyyatının başa düşülməsi üçün Bədiüzzamanın sözlərinin "batini təfsir" ilə təfsir edilməli olduğu şəklində yanlış düşüncə vardır. Risalələrdə şifrəli və kompleks izahat olduğu, sadəcə oxumaqla aydın ola bilməyəcəyi və bu şifrələri də ancaq müəyyən qabiliyyətlərə sahib xüsusi şəxslərin başa düşə biləcəkləri düşünülür.

Halbuki, Bədiüzzamanın açıq-aşkar və hikmətli sözlərindən ibarət Risalələrdə izah edilənlər oxuyanlar tərəfindən asanlıqla aydın olur. Bədiüzzamanın yığcam şəkildə qələmə aldığı açıq-aşkar sözlərinin bir daha təfsir edilməli olduğu düşüncəsi səhvdir. Bədiüzzaman "avamdan havassa, ya da orta məktəb şagirdindən bir filosofa qədər oxuyan hər kəsin asanlıqla anlaya biləcəyi" (Kastamonu Lahikası, səh. 70), (Şüalar,

səh. 549) sözləri ilə, risalələrin belə batini təfsir ilə şərh olunmasına ehtiyac olmadığını açıqlayır.

## 17) Risalə-i Nuru təfsir etmək olarmı?

Risalə-i Nurların geniş kütlələr üzərindəki səmimi təsiri çox açıqdır. Buna baxmayaraq, Bədiüzzamanın açıq-aşkar sözlərini bir daha təfsir etmək və şərh etmək kimi cəhdlər, Bədiüzzamanın sözlərinin əslindən uzaqlaşmasına və səhv nəticələr əldə edilməsinə gətirib çıxaracaq. Buna görə risalələrin "batini təfsir" adı altında ikinci dəfə təfsir edilməsi təhlükəli yanaşmadır.

Bədiüzzamanın şəxsən özü əsərlərində dəfələrlə bu mövzunun əhəmiyyətini ifadə etmiş; belə anlayışa qarşı olduğunu bəyan etmişdir. Əgər risalələrdəki mətnlərin təfsirə ehtiyacı varsa, bunu yenə bu mətnlər üzərində ediləcək əlavə şərhlərlə izah etmənin uyğun olacağını ifadə etmişdir. Bu sözlərindən birində Bədiüzzaman, "belə təfsir anlayışı olsa, bundan necə sui-istifadə ediləcəyini və bu yolla risalələrdə izah edilən həqiqətlərin necə əslindən uzaqlaşdırılıb dəyişdiriləcəyini" belə xatırlatmışdır:

"Nurun mətni, izaha ehtiyacı olsa, ya sətirin üstündə, ya kənarda haşiyəciklər (şərhlər) yazılsa daha münasibdir (uyğundur). Çünki mətn içinə girsə, çoxaldılan nüsxələr ayrı-ayrı olar, təshih (düzəltmə) lazım ola bilər. Həm su-i istifadəyə qapı açılar, muarızlar (qarşı çıxanlar) istifadə edərlər. Həm hər kəs sənin kimi muhakkik (həqiqəti araşdırıb tapan) müdakkik (ətraflı tədqiq edən, ən kiçik gizli şeyləri belə görməyə çalışan) olmaz, yanlış izah verər, bir söz əlavə edər, əhəmiyyətli həqiqəti itirməyə səbəb olar. Mən tashihatımda (düzəltmələrimdə) belə zərərli əlavələri çox gördüm..." (Emirdağ Lahikası Elyazma, səh. 661)

Bədiüzzamanın bu açıqlamaları ilə Axırzaman mövzusunda etdiyi izahlar üçün də keçərlidir. Bədiüzzaman hz. İsanın Axırzamanda ikinci dəfə yer

üzünə gələcəyini, hz. Mehdinin isə bütün müsəlmanlara bir hidayət öndəri olaraq ortaya çıxacağını bildirmişdir. Bədiüzzamanın bu mövzulardakı bütün izahları çox açıqdır. Əgər Bədiüzzaman hz. Mehdinin vəzifəyə başlayacağı tarix üçün hədislərə əsaslanaraq hicri 1400 deyirsə, bunu başqa cür şərh etmək məntiqsiz olar. Bədiüzzaman hz. Mehdinin üç böyük vəzifəni bir yerdə yerinə yetirəcəyini; həm siyasət, həm diyanət, həm də səltənət sahəsində Mehdilik edəcəyini də açıq şəkildə ifadə etmişdir. Buna baxmayaraq, Mehdiliyi üç hissəyə bölmək, birinin mehdilik üçün yetərli olacağını söyləyərək səhv şərh etmək olmaz. Bu mövzular kimi seyidlik mövzusunda da, Bədiüzzaman seyid olmadığını və bu mövzuda seyid ikən olmadığını söyləmənin dini cəhətdən uyğun olmadığını açıq və dəqiq olaraq izah etmişkən, mənanı fərqliləşdirəcək şəkildə şərh və təfsir etmək də doğru deyil. Eyni şəkildə Bədiüzzaman hz. İsanın, hz. Mehdinin arxasında namaz qılacağını hədis verərək açıqlamışkən, “əslində elə demək istəmədi” deyərək bu məlumatları fərqli istiqamətdə təfsir etmək də doğru deyil. Çünki həm Peyğəmbərimiz (s.ə.v)-in sözü, həm də Bədiüzzamanın bu hədis istiqamətindəki şərhləri varkən, bunun əksini söyləmək yanlış olar. Bunun kimi Bədiüzzaman hz. İsa və hz. Mehdinin birlikdə edəcəkləri fəaliyyətləri və bütün dünyaya Quran əxlaqını hakim edəcəklərini açıqlamış və bu mövzuda hədislər istiqamətində tarixlər də vermişkən, hz. İsa və hz. Mehdinin gəlməyəcəklərini, yalnız şəxsi-mənəvidən ibarət olacaqlarını qarşıya qoymaq da böyük yanılma olar. Bədiüzzamanın açıqlamalarına görə hz. İsa və hz. Mehdi şəxsi-mənəvi olaraq deyil, şəxs olaraq gələcəklərdir. Əlbəttə, onların təmsil etdikləri şəxsi-mənəviləri də olacaq, ancaq şəxsi-mənəvilərinin başında özləri də şəxsən lider olacaqlar. Bütün dünya hz. Mehdinin liderliyi altında toplanacaq, Quran əxlaqının yaşanması ilə anarxiya və qarışıqlıq mühiti sona çatacaq və yer üzünə hüzur və sülh hakim olacaq.

Buna görə də Bədiüzzamanın bütün sözlərinin, bu istiqamətdə, risalələrdəki açıq izahları əsas alınaraq qiymətləndirilməlidir. Bundan başqa "filankəsin yuxusu, filankəsin şəxsi söhbətlərdə eşitdikləri, filan şəxs haqqında edilən xüsusi şərhlər" kimi izahlarla, Bədiüzzamanın yazılarını şəxsən təshih və təsdiq etdiyi əsərləri dəyişdirməyə çalışmaq isə etibarsız, pis hərəkətlərdir.

Bu vəziyyət Bədiüzzamanın Risalələrdə izah etdiyi hər mövzu üçün keçərlidir. Belə bir təfsir məntiqinin Risalə-i Nurlar üzərində necə təsir meydana gətirəcəyi də yaxşı düşünülməlidir. Çünki belə yanlış məntiq ilə istəyən hər kəs Bədiüzzamanın hər sözünə fərqli izah gətirə bilər və bu şəkildə Bədiüzzamanın heç bir izahını qəbul etməyə bilər. İstəyən şəxs, özünə görə uyğun hesab etmədiyi hər izahı, şəxsi qənaətlərinə, ya da ətrafından duyduqlarına görə təfsir etmə yoluna gedə bilər.

Belə cəhdə maneə törədilməsi isə Axırzamanın böyük mücəddidi Bədiüzzamanın böyük səmimiyyətlə qələmə aldığı əsərlərinə sahib çıxmaqla, onun əslində söyləmək istədiklərini tam anlayıb onu dəstəkləməklə mümkün olacaq.

## 18) Axırzaman mövzusunda təfsir edənlər narahatlıq duyurlarmı?

Risalələri Axırzaman mövzularında Bədiüzzamanın açıq ifadələrini şərh etmənin altında “bunlar doğrudursa nə edərik, Bədiüzzamanın dedikləri çıxmır” kimi düşüncələrdən qaynaqlanan qorxular ola bilər.

Bədiüzzaman ələ aldığı mövzuları çox vasvası və olduğu kimi dəqiq şəkildə açıqlamışdır. İzah etdiklərində hər hansı ziddiyyət və ya həqiqətə uyğun olmayan bir şey yoxdur. Axırzamanla əlaqədar söylədiyi sözlər ifadə etdiyi tarixlərdə eynilə reallaşmış, əksəriyyəti də ifadə etdiyi zaman gələndə baş verir.

Hər hansı bir şərh edilmədən, önmühakiməsiz baxıldığında mövzunun çox açıq olduğu, hər şeyin yerinə oturduğu aydın olacaq. Bədiüzzamanın izahatlarının Qurana və Peyğəmbərimiz (s.ə.v)-in hədislərinə tam olaraq uyğun gəldiyi görüləcək. Bunun nəticəsində insanların Bədiüzzamana olan etibarları sevgi və bağlılıqları, Risalə-i Nurun hamısında izah edilənlərə inancları artacaq. Peyğəmbərimiz (s.ə.v)-in hz. Mehdi ilə əlaqədar çox təfərrüatlı izah edilmiş hədislərinə baxmayaraq, hansısa səbəblə bu mövzuda yanlışlığa düşmək, həqiqəti inkar etmək möminə yaraşmaz.

Allaha güvənmək, yersiz qorxulara qapılmamaq lazımdır. Möminə yaraşan Peyğəmbərimiz (s.ə.v)-in hədislərinə, Bədiüzzamanın şərhlərinə etibar etmək, baş verən hadisələri bu çərçivədə önmühakiməsiz olaraq qiymətləndirməkdir.

## 19) Hz. Mehdinin gəlişi haqqında rəvayətlər olmasaydı belə, hz. Mehdinin zühur etməsi Adətullaha uyğundurmu?

"Hər şeyə gücü çatan Allah hz. Mehdi ilə İslamın üstündəki qaranlığı dağıda bilər. Vəd etmişdir, vədini əlbəttə, həyata keçirəcək. Qüdrəti İlahiyyə (Allahın gücü) nöqtəsində çox asandır. Əgər səbəblər əsasında və hikməti Rəbbaniyə (Allahın diləməsi) nöqtəsində düşünülsə, yenə o qədər məqbul və həyata keçməyə layiqdir ki; əgər müxbiri Sadiqdən (doğru sözlü olan Peyğəmbər (s.ə.v)-dən) rəvayət olmazsa da hər halda elə olmalıdır. Və olacaqdır deyə əhli təfəkkür (mütəfəkkirlər) hökm edər." (Mektubat, səh. 411-412)

Bədiüzzaman əsərlərində, gələcəyi hədislərdə dəqiq olaraq açıqlanan hz. Mehdinin müjdələnilməmiş olsa da, gəlməsinin Adətullaha (Allahın kainatda qoyduğu dəyişməz hökmlərə) uyğun olduğunu ifadə etmişdir.

Quranda bəhsi keçən bütün mömin toplumlarının başında bir elçi, ya da öndər vardır. Axırzamanda da Quran əxlaqının bütün yer üzünə hakim olması kimi dünya tarixinin çox müstəsna bir dövründə möminlərin başsız, öz halında toplum olaraq qalmaları Quranda bildirilən Adətullaha uyğun deyil (doğrusunu Allah bilir).

Ayələrdə bildirildiyi kimi, İslam əxlaqının hakimiyyəti Allahın vədidir. Allah "İslam əxlaqını bütün dünyaya hakim edəcəyini, inanan qullarını güc və iqtidar sahibi edəcəyini" (Nur surəsi, 55) vəd etmiş və bu vədinin qəti olduğunu bildirmişdir. Rəbbimiz bu vədini yerinə yetirəcək. Üstəlik Quranda, mömin toplumların başında mütləq bir liderin olduğu bildirilir. Hər peyğəmbər, nəbi və ya elçi, göndərildikləri cəmiyyətə öndərlik etmişdirlər. Tarix boyunca bütün nümunələrində görüldüyü kimi,

hakimiyyət dövründə də müsəlmanların başında onlara yol göstərəcək liderləri mütləq olacaq. Peyğəmbərimiz (s.ə.v)-in mütəvatir hədislərində (içində yalan ehtimalı olmayan və yalan üzərində birləşmələri düşünülə bilməyəcək qədər çox olan bir camaata və əsaslı xəbərlərə əsaslanan hədislərlə), bu dövrdə möminlərin liderinin "hz. Mehdi" olacağı xəbər verilmişdir.

Uzun müddətdir ki, İslam dünyasının başında bütün müsəlmanları birləşdirəcək bir lider yoxdur. Müsəlmanların bu ilk lideri 1400 ildir müjdələnildiyi kimi hz. Mehdi olacaq. Hz. İsa Axırzamanda yer üzünə gələcək, möminlərə öndərlik edəcək və hz. Mehdi ilə birlikdə İslamın nurunun bütün insanları aydınlatmasına vəsilə olacaqlar.

## 20) Bədiüzzaman hz. Mehdi haqqında "keçmişdə qaldı" deyibmi?

"O "İRƏLİDƏ GƏLƏCƏK" ACİB (qəribə, heyrətverici, bənzərsiz) ŞƏXSİN (Hz. Mehdinin) bir XİDMƏTÇİSİ və ONA ZƏMİN HAZIR EDƏCƏK DÜMDARI (köməkçisi) və O BÖYÜK KOMANDİRİN PİŞDARI (öndə gedən əsgəri) olduğumu zənn edirəm." (Barla Lahikası, səh. 162)

Bədiüzzaman həzrətləri hz. Mehdi ilə əlaqədar etdiyi bütün açıqlamalarda onun mütləq "gələcəyini" vurğulamışdır. Hz. Mehdinin gözlənildiyini, özünün yaşadığı dövrdən daha irəlidəki bir zamanda gələcəyini, o gələndə özünün vəfat etmiş olacağını, çalışmaları ilə ona zəmin hazırladığını, özünü hz. Mehdinin bir əsgəri olaraq gördüyünü, Axırzamanla əlaqədar yazdığı yüzlərlə səhifədə təkidlə vurğulamışdır.

Bədiüzzaman Səid Nursinin hz. Mehdinin keçmişdə zühur etdiyinə dair heç bir izahatı olmamaqla yanaşı, hz. Mehdinin gələcək zamanda gələcəyinə dair bir çox əsərində dəfələrlə fərqli ifadələri vardır. Aşağıda Bədiüzzamanın əsərlərində hz. Mehdi üçün irəlidə "gələcək" ifadəsinin keçdiyi bəzi səhifələr yer alır:

**(Sözler, səh. 318 və səh. 358; Kastamonu Lahikası, səh. 57, və səh. 99; Barla Lahikası, səh. 162; Tılsımlar Mecmuası, səh. 168; Sikke-i Tasdik-i Gaybi, səh. 9 və səh. 138)**

FƏSİL

# Suallar 21–30

## 21) Bədiüzzaman öz vəzifəsini necə izah edib?

"MƏN BELƏ BİR NURUN ZÜHURUNU ÇOX GÖZLƏDİM VƏ HƏLƏ DƏ GÖZLƏYİRƏM. LAKİN ÇİÇƏKLƏR BAHARDA GƏLİR. ELƏ İSƏ O QÜDSİ ÇİÇƏKLƏRƏ ZƏMİN HAZIRLAMAQ LAZIMDIR. ANLADIQ Kİ, BU XİDMƏTİMİZLƏ O NURANİ ŞƏXSLƏRƏ (nurlu şəxslərə) ZƏMİN HAZIRLAYIRIQ." (Mektubat, səh. 371)

Bədiüzzaman hz. Mehdi və köməkçilərini "baharda gələcək qüdsi çiçəklər" olaraq xarakterizə etmiş, "özünün isə, etdiyi xidmətlərlə bu mübarək şəxsə zəmin hazırlayan qabaqcıl olduğunu" ifadə etmişdir.

Bədiüzzaman "bir nur" olaraq ifadə etdiyi Axırzamanda gələcək hz. Mehdinin zühurunu çox gözlədiyini və hələ də gözləməkdə olduğunu ifadə edir. Bədiüzzaman bu sözləri ilə çox açıq şəkildə özünün hz. Mehdi olmadığını və özünün də bu mübarək şəxsin zühurunu böyük həyəcanla müşahidə etdiyini ifadə edir. Tək Bədiüzzaman deyil, səhabələr dövründən etibarən milyonlarla səmimi müsəlman, İslam alimləri, məzhəb imamları, müctəhidlər hz. Mehdi və yanındakı möminlərə qarşı dərin hörmət bəsləyiblər. Ona və camaatına dua ediblər, onlar üçün Allahdan kömək diləyiblər. Hz. Mehdi və camaatı gəlmiş keçmiş bütün müsəlmanların ortaq dostudur. Bütün inananlar üçün şövq və həyəcan vəsiləsidir. Bədiüzzaman da sözlərində bu düşüncəni dilə gətirir, özünün də böyük həyəcan və sevgi ilə hz. Mehdinin gəlişini gözlədiyini ifadə edir. Bədiüzzaman burada istifadə etdiyi "ÇOX İNTİZAR ETDİM VƏ EDİRƏM", yəni "ÇOX GÖZLƏDİM VƏ HƏLƏ DƏ GÖZLƏYİRƏM" sözləri ilə bu vəziyyəti

dilə gətirmiş, ancaq yaşadığı müddətdə bu müqəddəs şəxsin zühurunun həyata keçmədiyini bildirmişdir.

Bədiüzzaman Axırzamanda gələcək hz. Mehdi və camaatına qarşı səmimi və dərin sevgi sahibidir. Hz. Mehdi və yanındakıların gözəl əxlaqını və mübarizələrini "çiçəklər"ə bənzədir və onların baharda, yer üzünün bütün gözəlliklərinin ortaya çıxdığı dövrdə gələcəklərini izah edir. Bədiüzzaman hz. Mehdinin gələcəyi dövrü qaranlıq quru qışdan sonra gələn aydın, günəşli, gözəlliklərlə dolu bahara bənzədir. Bədiüzzamanın çiçək bənzətməsi bu dövrdə yaşanacaq hüzur, sülh, ədalət və gözəllikləri izah etmək üçün edilmiş çox gözəl nümunədir. Bədiüzzaman bu bahar dövrünün çox yaxın olduğunu bildirir. Bir başqa açıqlamasında isə özünün "tələsib qışda gəldiyini" ifadə etmiş; necə ki, qışdan dərhal sonra bahar gəlirsə, Axırzamanda gələcək mübarək şəxs və camaatının da, özündən dərhal sonra baharı gətirəcəyini müjdələmişdir. Bədiüzzaman bu sözləri ilə çox açıq şəkildə "özünün hz. Mehdi olmadığını, ancaq bu mübarək şəxsə mühit hazırlayan qabaqcılı olduğunu" ifadə etmişdir.

Bədiüzzaman bir daha "QÜDSİ ÇİÇƏKLƏR" sözləri ilə bəhs etdiyi hz. Mehdi və tələbələrinə qarşı olan sevgisini dilə gətirmiş, hz. Mehdinin gəlişini çox gözlədiyini və hələ də gözləməkdə olduğunu ifadə etmişdir. Bu vəziyyətdə gələcək olan şəxslərə, yəni hz. Mehdi və camaatına zəmin hazırlamaq lazım olduğunu söyləyən Bədiüzzaman, özünün və camaatının bu vəzifəni boynuna götürdüyünü ifadə etmişdir. Onlardan əvvəl gəlib onlar üçün hazırlıq gördüyünü söyləyərək, hz. Mehdinin özündən sonra gələcək bir şəxs olduğunu bir daha dilə gətirmişdir.

Bədiüzzaman "ANLADIQ Kİ" sözləri ilə özünün hz. Mehdi olmadığı, ancaq etdiyi xidmətlərlə bu mübarək adama zəmin hazırladığı mövzusundakı qənaətini dilə gətirir. "ANLADIQ Kİ" ifadəsi, Bədiüzzamanın ürəyinə gələn həqiqəti və Bədiüzzamanın bu həqiqətə dəqiq və səmimi olaraq

inandığını göstərir. Bədiüzzaman bu sözlə, təvazökar olduğu üçün belə söz söyləmədiyini, dəlilləri ilə açıqca ortada olan bu mövzuda qəti qənaətini ifadə etdiyini ortaya qoyur.

Bədiüzzaman bu sözündə "XİDMƏTİMİZLƏ" deyərək çoxluq bildirən ifadədən istifadə etmişdir. Deməli, Bədiüzzaman bu xidmətdə tək deyil; ona kömək edən Nur camaatı da vardır. Bədiüzzaman "xidmətimizlə" deyərkən bütün Nur tələbələrini də bu xidmətə daxil edir.

## 22) Bədiüzzamanın dövründə bidətlər aradan qalxmışdı?

“Bir vəlidən eşitdim ki; o şəxs, əvvəlki vəlilərin qeybi işarələrindən istihrac etmiş (mənasını ortaya çıxarmış) və bu qənaətə gəlib ki: “Şərq tərəfindən bir nur zühur edəcək (ortaya çıxacaq), bidətlər zülumatını (dinə sonradan girmiş xurafatları) dağıdacaq.” (Mektubat, səh. 371)

Quranda və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsində olmayan “bidət” olaraq adlandırılan bəzi yanlış inanc və tətbiqlər hələ də cəmiyyətdə davam edir. Bu bidətlər Bədiüzzamanın dövründə də var idi və onun vəfatından sonra da olmağa davam etdi.

Hədislərdə bildirildiyinə görə hz. Mehdi ortaya çıxdığında, İslam dininə sonradan daxil edilmiş bütün batil inanc və tətbiqləri ortadan qaldıracaq. “...insanlar arasında Peyğəmbərin (s.ə.v) sünnəsi ilə rəftar edəcək” (İslam Ensiklopediyası, 14-cü cild, səh. 116) rəvayətində bildirildiyi kimi, Peyğəmbərimiz (s.ə.v)-in yoluna uyğun gələcək və eynilə onun dövründəki kimi din əxlaqının haqq ilə yaşanmasına vəsilə olacaq.

> “Hz. Mehdi bütün bidətləri aradan qaldıracaq.” (El-Kavlu’l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 43)

> “Mehdi bütün bidətləri aradan qaldıracaq. Axırzamanda eyni Peyğəmbər (s.ə.v) kimi dinin zərurətlərini yerinə yetirəcək.” (Kıyamet Alametleri, səh. 163)

## 23) Hz. Mehdinin vəzifələri nələrdir?

**Hz. Mehdi günümüzə qədər təsirini davam etdirən materializm, Darvinizm və ateizmi tamamilə susduracaq tərzdə imani fəaliyyət göstərəcək.**

"Birincisi: FƏN (elm) VƏ FƏLSƏFƏNİN tasallutiyle (təsiri ilə) və MADDİYYUN VƏ TABİİYYUN TAUNU, (materializm, Darvinizm və ateizm xəstəliyi) başər içinə intişar etməsiylə (insanlar arasında yayılmasıyla), hər şeydən əvvəl FƏLSƏFƏNİ VƏ MADDİYYUN FİKİRİNİ (materializm, Darvinizm və ateizm kimi Allahı inkar edən dinsiz axınları) TAM SUSDURACAQ TƏRZDƏ imanı qurtarmaqdır. Əhli imanı dəlalətdən mühafizə etmək (iman edənləri azğınlıqdan qorumaq)..." (Emirdağ Lahikası, səh. 259)

Bədiüzzaman bu sözündə, hz. Mehdinin üç böyük vəzifəsindən birincisini açıqlayır. Buna görə hz. Mehdinin birinci vəzifəsi, "materialist və ateist fəlsəfələri tamamilə susduracaq bir şəkildə insanların imanlarını qazanmasına vəsilə olmaq"dır.

Bədiüzzaman bu sözlərində, elm və fəlsəfənin təsiri ilə materializm, Darvinizm və ateizm kimi Allahı inkar edən dinsiz axınların insanlar arasında yayıldığına diqqət çəkmişdir. Bədiüzzaman bu axınların təsirsiz hala gətirilərək tam olaraq susdurulmasının və insanların imanının qurtarılmasının hz. Mehdinin birinci vəzifəsi olduğunu ifadə etmişdir.

Bədiüzzaman burada hz. Mehdinin birinci vəzifəsi ilə əlaqədar olaraq "fən və fəlsəfə"nin təsirinə xüsusilə diqqət çəkir. Elm və fəlsəfə iman şüuru ilə yaxınlaşan insanların dünyagörüşü ilə irəliləyəndə böyük hadisələrə, Allahın varlığının və sifətlərinin daha yaxşı başa düşülməsinə vəsilə olar. Elmin, materializm müdafiəçiləri tərəfindən insanlar üzərində yaradılan

səhv istiqamətləndirmələrini, Bədiüzzamanın da ifadə etdiyi kimi hz. Mehdi ortadan qaldıracaq. Axırzamanda texnologiyanın sürətlə irəliləməsi ilə bir çox elm sahəsində irəliləyişlər olacaq. Allahın varlığının dəlilləri, yer üzündəki iman həqiqətləri elmi dəlilləri ilə açıq şəkildə ortaya çıxacaq. Hz. Mehdi bu həqiqətləri insanlara ən təsirli üsullarla çatdıracaq və bu mövzuda dünya səviyyəsində nəticə əldə edəcək. Məsih Dəccalın Axırzaman fitnəsi, ancaq belə güclü üsullarla qırılacaq.

Materializm və ateizm, insanlığa böyük fəlakətlər gətirən azğın axınlardır. Darvinizm, materializm və ateizmə fikri dayaq meydana gətirər. Darvinizmin iddiası kainatın və canlılığın kor təsadüflər nəticəsində öz-özünə həyatı yaratdığıdır. Son 150 ilin ən böyük yalanı olan bu axının fikirlə tamamilə susdurulması günümüzə qədər mümkün olmamışdır. Darvinizm müasir elmin son tapıntıları və irəliləyən texnologiya vəsiləsi ilə hz. Mehdi dövründə tamamilə ortadan qalxacaq. İnsanlıq tarixinin gördüyü bu ən şiddətli fitnənin fikirlə susdurulması hz. Mehdi zamanında reallaşdırılacaq.

Bədiüzzaman bu sözlərində hz. Mehdinin "FƏLSƏFƏNİ VƏ MADDİYYUN FİKİRİNİ TAM SUSDURACAQ TƏRZDƏ" fəaliyyət göstərərək insanların imanlarının xilas olmasına vəsilə olacağını ifadə etmişdir. Bədiüzzaman Axırzamanda ateist fəlsəfələrin təhlükə yaradacağını bildirmiş, xüsusilə Darvinist, materialist fəlsəfələrin ateizmlə güclənəcəklərini və Allahın varlığını inkar edəcək təhlükəli yol izləyəcəklərini ifadə etmişdir. Buna görə də hz. Mehdinin birinci vəzifəsinin, materializm fikri, yəni Allahı inkar üzərinə qurulmuş materialist, Darvinist və ateist fəlsəfələrlə mübarizə etmək və bu fəlsəfələrin insanlar üzərindəki təsirini tamamilə qaldırmaq olacağını ifadə etmişdir. Bədiüzzamanın burada istifadə etdiyi "TAMAMİLƏ SUSDURACAQ" ifadəsi çox əhəmiyyətlidir. Bilindiyi kimi, materializmin həm Türkiyədə, həm də dünyada güclənməsi Bədiüzzaman zamanında davam etdiyi kimi, vəfatından, yəni 1960-cı illərdən sonra da

günümüzə qədər davam etmişdir. Televiziya və radio kanallarının inkişafı ilə yazılı mətbuatın da dəstəyi ilə təsirləri getdikcə artmışdır. Yəni Bədiüzzamanın vəfatından sonra da materializm təbliğatı artaraq 21-ci əsrə qədər gəlmişdir.

Buna görə də özünün də ifadə etdiyi kimi, Bədiüzzamanın dövründə bu mövzuda tam nəticə əldə edilməmişdir. Bədiüzzaman bu sözündə istifadə etdiyi "TAMAMİLƏ SUSDURACAQ" ifadəsi ilə bu həqiqətə diqqət çəkmişdir. Materializm, ateizm və Darvinizmin çöküşü ilə birlikdə insanların imanını qurtarma vəzifəsi dünya səviyyəsində hz. Mehdiyə verilmişdir. Bədiüzzamanın şəxsən başladığı, ancaq tamamilə sona çatmayan bu axınla fikri mübarizə hz. Mehdi ilə davam edəcək və nəticəyə çatdırılacaq.

Bədiüzzaman da "TAMAMİLƏ SUSDURACAQ" ifadəsi ilə, ancaq hz. Mehdinin bu mübarizədə "tam üstünlük təmin edəcəyinə" işarə edir.

## Hz. Mehdi müsəlmanların mənəvi öndəri olacaq.

> "XİLAFƏTİ MƏHƏMMƏDİYƏ ÜNVAN İLƏ (Peyğəmbərimiz (s.ə.v)-in xəlifəsi ünvanı ilə) ŞEAİR-İ İSLAMİYEYİ (İslam əxlaqının əsaslarını) CANLANDIRMAQDIR (yenidən canlandırmaqdır)." (Emirdağ Lahikası, səh. 259)

Bədiüzzaman "XİLAFƏTİ MƏHƏMMƏDİYƏ ÜNVANI İLƏ" sözləri ilə hz. Mehdinin İslam dünyasının öndəri olacağını ifadə edir. Hz. Mehdinin "İSLAM CƏMİYYƏTİNİN LİDERİ XÜSUSİYYƏTİ İLƏ İslamiyyəti yenidən canlandırması, sayı milyonlarla olan toplumun maddi və mənəvi gücü ilə hərəkət edərək bütün yer üzündə İslam Birliyini təmin etməsi" xüsusiyyətləri, nə Bədiüzzaman, nə də ondan əvvəlki mücəddidlərin dövründə baş verməyib. Bədiüzzaman Səid Nursi yaşadığı dövr boyunca İslam dünyası və müsəlmanlar adına bənzərsiz xidmətlər göstərmiş, bir çox insanın doğru yolu tapmasına, Allaha yaxınlaşmasına və imanda dərinləşməsinə vəsilə olmuşdur. Ardında hələ də müsəlmanlar üçün

əhəmiyyətli hidayət rəhbəri olan hikmət dolu əsərlər qoymuş, üstün elm və fərasəti ilə bütün müsəlmanlara yol göstərmişdir. Böyük mütəfəkkir Bədiüzzaman, şübhəsiz ki, 13-cü əsrin mücəddididir. Ancaq Peyğəmbərimiz (s.ə.v)-in hədisləri istiqamətində açıqladığı kimi, "BÜTÜN MÜSƏLMANLARIN LİDERİ" xüsusiyyətini daşıması mümkün olmamışdır. Allahın icazəsi ilə bütün İslam aləmi üçün böyük müjdələr ehtiva edən bu hadisələr, Axırzamanda hz. Mehdi vəsiləsi ilə yaşanacaq və bu ünvanı da hz. Mehdi daşıyacaq. Bədiüzzaman bu mövzunu bütün dəlilləri ilə birlikdə izah edərək, özünün Axırzaman Mehdisi olmadığını açıq şəkildə ifadə etmişdir.

Bu gün dünyada 1 milyarddan çox müsəlman yaşayır. Dünya tarixində ilk dəfə müsəlmanlar sayca bu qədər çoxdurlar. Bu böyüklükdə kütləyə öndərlik etmək tarixdə heç kimə nəsib olmamışdır. Bədiüzzamanın da müjdələdiyi kimi, bu şərəfli xüsusiyyəti Allahın icazəsi ilə Axırzamanın "Böyük Mehdisi" daşıyacaq.

Bədiüzzaman "ŞEAİRİ İSLAMİYEYİ CANLANDIRMAQDIR" sözləri ilə hz. Mehdinin ikinci vəzifəsinin İslam əxlaqının əsaslarını yenidən canlandırmaq olduğunu ifadə etmişdir. Bədiüzzamanın burada istifadə etdiyi "CANLANDIRMAQ" sözü çox əhəmiyyətlidir. Bu söz "yenidən həyata qovuşdurmaq" mənasındadır. Hz. Mehdi İslam əxlaqının dünya səviyyəsində yaşanmasına vəsilə olacaq. Bədiüzzaman bu mövzunun toxumlarını atmışdır, ancaq özünün də ifadə etdiyi kimi "yenidən həyata qovuşdurma şəklində bir canlanma", tam mənası ilə hz. Mehdi vəsiləsi ilə yerinə yetiriləcək.

## İndiyə qədər olmamış İslam Birliyini hz. Mehdi quracaq.

> "ALƏMİ İSLAMIN VƏHDƏTİNİ (İslam aləminin birliyini) NÖQTƏ-İ İSTİNAD EDİB (dayaq nöqtəsi edib) bəşəriyyəti (insanlığı) maddi və mənəvi təhlükələrdən və qəzəbi İlahidən (Allahın əzabından) qurtarmaqdır." (Emirdağ Lahikası, səh. 259)

Bədiüzzamanın açıqlamalarına görə hz. Mehdi hal-hazırda müxtəlif qruplar halında dağınıq olan müsəlmanları birləşdirəcək, İslam əxlaqını və fəzilətini, Peyğəmbərimiz (s.ə.v)-in əsl sünnələrini canlandıracaq. İslam aləminin birliyini meydana gətirəcək, bu vəsilə ilə bəşəriyyəti maddi və mənəvi təhlükələrdən qurtaracaq və insanların Quran əxlaqını tətbiq edərək Allahın qəzəbindən çəkinmələrinə vəsilə olacaq.

Bədiüzzaman bu sözləri ilə hz. Mehdinin daha əvvəl heç bir mücəddid tərəfindən yerinə yetirilməmiş vəzifələrindən birinin "İSLAM BİRLİYİNİN TƏMİN EDİLMƏSİ" olduğunu bildirir. Hz. Mehdi bu birliyin qurulmasına vəsilə olacaq, milyonlarla Müsəlmanı bir yerə gətirəcək. Bədiüzzamanın da vurğuladığı kimi, İslam Birliyinin təmin edilməsi və bu birliyin liderliyi ünvanının daşınması Bədiüzzamanın dövründə, ondan əvvəlki mücəddidlərin tarixində və dövrümüzdə hələ baş verməyib. Bədiüzzaman da bu həqiqəti vurğulamış, bu hadisələrin hz. Mehdinin tanınmasında ən əhəmiyyətli əlamətlərdən biri olacağını xatırlatmışdır. Hz. Mehdi gələndə Bədiüzzamanın da ifadə etdiyi kimi, vəsilə olacağı bu hadisələrlə Allah onu bütün insanlara tanıdacaq.

## Hz. Mehdi əsl İsəvilər ilə ittifaq edib, Quran əxlaqını dünyaya yayacaq.

"O ŞƏXSİN üçüncü vəzifəsi, XİLAFƏTİ İSLAMI, yəni (İslam xəlifəliyini) BİRLİYİ İSLAMA BİNA EDƏRƏK (İslam Birliyi üzərinə quraraq), İSƏVİ RUHANİLƏR İLƏ (dindar Xristianlarla və Xristian alimləri ilə) İTTİFAQ EDİB (əməkdaşlıq və həmrəylik içərisinə girərək) DİNİ İSLAMA (İslam dininə) XİDMƏT ETMƏKDİR." (Sikke-i Tasdik-i Gaybi, səh. 9)

Bədiüzzaman hz. Mehdinin üçüncü vəzifəsinin, İslam cəmiyyətini birləşdirib Xristian öndərlər ilə İslam və Xristianlığın ortaq cəbhəsi olan "materializm və dinsizliyə" qarşı ittifaq etmək və bu yolla İslam dininə

xidmət etmək olduğunu bildirir. Bir Quran ayəsində, "...Onların içində iman gətirənlərə sevgi cəhətdən ən yaxın olanların isə: "Biz xristianıq", - deyənlər olduğunu görərsən. Çünki, onların içində keşiş və rahiblər vardır və onlar təkəbbürlük göstərmirlər." (Maidə surəsi, 82) sözləri ilə bildirildiyi kimi, səmimi müsəlmanlar və səmimi xristianlar bir-birlərinin müttəfiqidirlər. Dinsizliyə qarşı ortaq fikri mübarizə aparmalı və bir-birlərinə kömək etməlidirlər. Axırzamanda bu həmrəyliyin ən gözəl nümunəsi hz. İsa və hz. Mehdi vəsiləsi ilə yaşanacaq. Bədiüzzaman da bu sözləri ilə hz. Mehdinin bu əhəmiyyətli əlamətinə diqqət çəkir.

Hz. Mehdinin İslam Birliyini qurub Xristian öndərlərlə ittifaq etməsi və bu vəsilə ilə İslama xidmət etməsi, Bədiüzzamanın yaşadığı dövrdə və əvvəlində baş verməmişdir. Bədiüzzaman özü həyatda ikən hələ baş verməmiş bu hadisələri xatırladaraq, hz. Mehdinin özündən sonrakı tarixdə gələcəyini müjdələyir və özünün hz. Mehdi olmadığını bir daha vurğulayır.

## 24) Bu ittifaqın baş verməsinə hz. Mehdinin hansı xüsusiyyətləri və kimlər vəsilə olacaqlar?

> "BU VƏZİFƏ, ÇOX BÖYÜK BİR SƏLTƏNƏT, GÜC və MİLYONLARLA FƏDAKARLARLA (MİLYONLARIN FƏDAKARCA İŞTİRAKI İLƏ) TƏTBİQ EDİLƏ BİLƏR (yerinə yetirilə bilər)." (Sikke-i Tasdik-i Gaybi, səh. 9)

Bədiüzzaman İslam Birliyi ilə müsəlman və xristian dünyasının haqq din uğrunda ittifaq etməsi kimi böyük hadisənin ancaq üç şərtin meydana gəlməsi ilə olacağına diqqət çəkmişdir. Bədiüzzaman "ÇOX BÖYÜK SƏLTƏNƏT VƏ GÜC" sözləri ilə bu şərtlərdən ikisini açıqlayır. "Səltənət" anlayışı, güc və səlahiyyət ifadə edir. "GÜC" anlayışı isə "istədiyi şeyi icra edə bilmə gücü, yəni səlahiyyət"i xarakterizə edir. Bədiüzzaman hz. Mehdinin İslam Birliyini meydana gətirib bu birliyin liderliyini boynuna götürəcəyini və "çox böyük güc və səlahiyyətə sahib olacağını" bildirmişdir. Bədiüzzamanın "ÇOX BÖYÜK" sözləri hz. Mehdinin sahib olacağı bu gücün və səltənətin miqyasının böyüklüyünü ifadə edir. Belə böyük gücün Bədiüzzaman və ondan əvvəlki mücəddidlərin zamanında baş vermədiyi hamı tərəfində bilinir. Bədiüzzaman da hz. Mehdinin bu əhəmiyyətli əlamətini vurğulayaraq, bu mübarək şəxsin öz yaşadığı dövrdə hələ gəlmədiyini, zühur edəndə isə bu xüsusiyyətlər ilə tanınacağını xatırlatmışdır.

Bədiüzzaman "MİLYONLARLA FƏDAKARLARLA TƏTBİQ EDİLƏ BİLƏR" sözləri ilə hz. Mehdinin üçüncü vəzifəsini yerinə yetirə bilməsi üçün lazım olan üçüncü şərtin "MİLYONLARLA FƏDAKARLAR" olduğunu ifadə etmişdir. Bədiüzzaman bu sözləri ilə hz. Mehdiyə tabe olan, onu dəstəkləyən milyonlarla insan olacağını bildirmişdir. Belə geniş miqyaslı dəstək Bədiüzzamanın imani xidmətində olmamışdır. Üstəlik, Bədiüzzaman hz. Mehdinin bu vəzifəsini yerinə yetirə bilməsi üçün yalnız "milyondan çox fədakarca dəstək" deyil, eyni zamanda "böyük güc,

qüdrət və hakimiyyət"in də bununla bir yerdə meydana gəlməli olduğunu ifadə etmişdir. Bu həqiqəti xatırladaraq da, hz. Mehdinin özünün yaşadığı dövrdə gəlmədiyini irəli sürmüşdür.

## 25) Tarixdə kim bu vəzifələrin üçünü də eyni zamanda icra etmişdir?

“Bu üç vəzifənin eyni zamanda və eyni şəxsdə və yaxud camaatda olması və mükəmməl şəkildə icra edilməsi və bir-birinə mane olmaması mümkün deyil. Axırzamanda ALİ BEYTİ NƏBƏVİNİN (Peyğəmbərimiz (s.ə.v)-in soyunun) CAMAATI NURANİYESİNİ (nurani camaatını) TƏMSİL EDƏN HƏZRƏTİ MEHDİDƏ VƏ CAMAATINDAKI ŞƏXSİ MƏNƏVİDƏ bir yerə gələ bilər, toplana bilər.” (Kastamonu Lahikası, səh. 139)

Bədiüzzaman bu sözündə hz. Mehdinin üç vəzifəsi olduğunu ifadə edir, bu üç vəzifənin bir yerdə yerinə yetirilməsinin hz. Mehdinin ən əhəmiyyətli əlamətlərindən biri olduğuna diqqət çəkir. Bədiüzzaman özünün yaşadığı və özündən əvvəlki mücəddidlərin yaşadığı dövrlərdə bu üç vəzifənin eyni zamanda yerinə yetirilmədiyini, bunu ancaq hz. Mehdinin həyata keçirəcəyini söyləyir.

Bu vəzifələrin birincisi materialist, Darvinist və ateist fəlsəfələrlə fikri mübarizə edilməsi və bu axınların fikirlə tamamilə susdurulmasıdır. İkincisi, İslam dünyasının liderliyini boynuna götürərək İslam Birliyinin təmin edilməsi, üçüncüsü isə Quran əxlaqının və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsinin yenidən canlandırılması ilə bütün yer üzünə hakim edilməsidir. Axırzamanda gələcək hz. Mehdi bu vəzifələrin üçünü eyni zamanda yerinə yetirəcək. Bu əlamət, onun tanınmasını təmin edəcək və onun ən əhəmiyyətli xüsusiyyətlərindən olacaq.

Bədiüzzaman əsərlərində hz. Mehdinin eyni anda, “SİYASƏT MEHDİSİ, SƏLTƏNƏT MEHDİSİ VƏ DİYANƏT MEHDİSİ” olaraq üç xüsusiyyətə birdən sahib olacağını və bu üç sahədə birdən Mehdilik edəcəyini söyləmişdir.

Bədiüzzaman, Quran əxlaqını dünya üzərində hakim etmək məqsədi ilə əvvəlki əsrlərdə də bəzi Müsəlman şəxslərin gəldiyini, ancaq bunların heç birinin, Axırzamanda hz. Mehdinin edəcəyi üç əhəmiyyətli vəzifəni bu şəkildə bir yerdə yerinə yetirmədiklərini ifadə etmişdir. Buna görə də Axırzamanın "böyük Mehdi"si ünvanını ala bilmədiklərini ifadə etmişdir.

Bədiüzzaman bu mənada, Risalə-i Nurun da hz. Mehdinin üç vəzifəsindən birincisi olan "imanı qurtarmaq" vəzifəsini yerinə yetirdiyini söyləmişdir. Ancaq bu xidmətin dar dairədə məhdud qaldığını, hz. Mehdinin geniş dairədəki vəzifələrini isə ancaq Böyük Mehdinin həyata keçirəcəyini açıqlamışdır. Hədislərdə də ifadə edildiyi kimi, hz. Mehdi zühur edəndə nə Mehdiliyini iddia edəcək, nə də bunun təbliğatını edəcək. Hz. Mehdinin burada sayılan böyük fəaliyyətləri, bu müqəddəs şəxsin zühurunun ən böyük isbatı və dəlili olacaq.

Bədiüzzaman hz. Mehdinin "ÜÇ VƏZİFƏNİ EYNİ ZAMANDA" yerinə yetirəcəyini ifadə etdiyi bu sözü ilə mövzunun əhəmiyyətini bir daha xatırladır. Özü də daxil olmaqla, əvvəlki mücəddidlərin heç birinin bunların üçünü bir yerdə həyata keçirmədiyinə diqqət çəkərək, hz. Mehdinin o dövrdə hələ gəlmədiyini ifadə edir.

Bədiüzzaman "BU ZAMANDA" sözləri ilə özünün yaşadığı dövrdən bəhs edir. Öz zamanında hz. Mehdinin yerinə yetirəcəyi üç vəzifəni tək bir şəxsin eyni anda yerinə yetirməsinin və bu üç vəzifənin bir-birinə maneə olmasının mümkün olmadığını söyləyir. Bədiüzzaman bu qənaətinin nə qədər güclü olduğunu "ÇOX UZAQ" və "SANKİ MÜMKÜN DEYİL" sözləri ilə açıq şəkildə ifadə etmişdir. Bu da, hz. Mehdinin Bədiüzzamanın yaşadığı dövrdə zühur etmədiyini göstərən bir başqa əhəmiyyətli dəlildir. Bədiüzzamanın yaşadığı dövrdə, üç vəzifənin eyni zamanda yerinə yetirilməsinə imkan olmamışdır. Bədiüzzaman ancaq özündən bir əsr

sonra gələcək böyük Mehdinin bu vəzifələrin hamısını yerinə yetirəcəyini bildirir.

Bədiüzzaman əsərlərində dəfələrlə hz. Mehdinin hədislərdə bildirildiyi kimi "seyid", yəni "Peyğəmbərimiz (s.ə.v)-in soyundan gələn bir kimsə" olacağını, "özünün isə seyid olmadığını" ifadə etmişdir. Bədiüzzaman bu sözündə də bu mövzunu bir daha izah edir, "ALİ BEYTİ NƏBƏVİNİN CAMAATI NURANİYESİNİ TƏMSİL EDƏN" sözləri ilə hz. Mehdinin "Peyğəmbərimiz (s.ə.v.)-in mübarək soyundan" olacağına diqqət çəkir. Bədiüzzaman hz. Mehdinin bu əhəmiyyətli əlamətlərindən birini xatırladaraq özünün hz. Mehdi olmadığını ifadə edir.

Bədiüzzaman "hz. Mehdi və camaatındakı şəxsi-mənəvidə" sözləri ilə hz. Mehdinin şəxsindən və onun şəxsi-mənəvisini meydana gətirən camaatından fərqli anlayışlar olaraq bəhs edir. Aradakı "və" sözü "hz. Mehdinin və camaatının iki fərqli varlıq olduğunu" ifadə edir. Hz. Mehdinin mübarək şəxsi ilə birlikdə, bir də onun şəxsi-mənəvisini meydana gətirən bir camaatı olacaq. Hz. Mehdinin şəxsi olmadan, belə bir şəxsi-mənəvidən danışmaq mümkün deyil. Bədiüzzaman da bu həqiqəti ifadə edir və hz. Mehdinin bir şəxs olacağını müjdələyir.

Bədiüzzamanın açıqladığı üç böyük vəzifə ancaq Axırzamanda gələcək hz. Mehdinin yerinə gətirə biləcəyi vəzifələrdir. Bədiüzzaman burada istifadə etdiyi "ANCAQ" sözü ilə bir başqasının bu vəzifələri bacarmasının Allahın diləməsi ilə "QEYRİ-MÜMKÜN" olduğunu ifadə etmişdir. Çünki Allah bu vəzifələri yalnız hz. Mehdinin yerinə yetirməsini təqdir etmişdir. Hz. Mehdi də taleyində belə təqdir edildiyi üçün bu vəzifələri Allahın icazəsi ilə müvəffəqiyyətlə yerinə yetirəcək. İslam tarixində hələ bunu bacaran bir şəxs, ya da toplum görülmədiyi kimi, Bədiüzzaman özünün yaşadığı dövrdə də bu vəziyyətin baş vermədiyini vurğulayır.

## 26) Yaşadığı dövrdə Bədiüzzamana milyonlarla insan dəstək olmuşdurmu?

"Aləmi İslamın vəhdətini (İslam aləminin birliyini) nöqtəyi istinad edib (dayaq nöqtəsi edib) bəşəriyyəti (insanlığı) maddi və mənəvi təhlükələrdən və qəzəbi İlahidən (Allahın əzabından) qurtarır. Bu vəzifənin icra edilməsi üçün nöqtə-istinadı (dayaq nöqtəsi) və həddimləri (xidmətçiləri), MİLYONLARLA EFRADI (üzvü) OLAN ORDU lazımdır." (Emirdağ Lahikası, səh. 259)

Bədiüzzaman "MİLYONLARLA EFRADI (ÜZVÜ) OLAN ORDU" sözləri ilə hz. Mehdinin İslam Birliyini təmin etməsində, ona kömək edəcək çox geniş kütlənin olacağından bəhs edir. Bədiüzzaman hz. Mehdinin xidmətində, Allahın varlığı və birliyi mövzusunu, iman həqiqətlərini bütün bəşəriyyətə izah edəcək, geniş əhatəli imani xidmət icra edəcək olan elm və iman sahibi toplum olacağını bildirmişdir.

Bədiüzzaman əsərlərində yer verdiyi digər sözlərində özünün də bu elm ordusunun, onlara əvvəldən hazırlıq görən bir şəxs, yəni əsgər olduğunu izah edir. Bədiüzzamanın yaşadığı dövrdə belə geniş ətrafı və köməyi olmamışdır. Bədiüzzamanın da sözlərində dəfələrlə ifadə etdiyi kimi, məhdud bir toplum olan Nur tələbələri çox məhdud imkanlar çərçivəsində və çox böyük fədakarlıqla böyük imani xidmət ediblər. Bədiüzzaman belə böyük kütlənin dəstəyinin, ancaq Axırzamanda olacağını və bunun da hz. Mehdinin yerinə yetirəcəyi bu böyük vəzifəyə nəsib olacağını bildirir.

## 27) Hal-hazırda Quran əxlaqı dünya miqyasında yaşanırmı?

> "O ŞƏXSİN İKİNCİ VƏZİFƏSİ, ŞƏRİƏTİ (Quran əxlaqının əsaslarını və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsini) İCRA VƏ TƏTBİQ ETMƏKDİR (yerinə yetirməkdir)." (Sikke-i Tasdik-i Gaybi, səh. 9)

"İCRA VƏ TƏTBİQ ETMƏK", "tətbiq etmək, qüvvəyə mindirmək, yerinə yetirmək" deməkdir. Bədiüzzaman da bu sözü ilə hz. Mehdinin, Quran əxlaqının əhəmiyyətini, əsaslarını və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsini bütün insanlar arasında tətbiq edəcəyini və həyata keçirəcəyini ifadə edir. Bu da hz. Mehdinin İslam Birliyini meydana gətirməsi və bütün müsəlmanların liderliyini boynuna götürməsi ilə həyata keçəcək. Bədiüzzamanın dövründə olduğu kimi, dövrümüzdə hələ də Quran əxlaqı dünya səviyyəsində hakim deyil. Bədiüzzaman da bu həqiqəti xatırladaraq, bu vəzifəni hələ heç kimin yerinə yetirmədiyinə və baş verəndə də bunun, hz. Mehdinin ən əhəmiyyətli əlamətlərindən biri olacağına diqqət çəkmişdir.

Bu günə qədər Quran əxlaqı yer üzündə hakim olmamışdır. Bədiüzzaman da daxil olmaqla Peyğəmbərimiz (s.ə.v)-dən sonrakı dövrlərdə gələn mücəddidlərin hər biri yaşadıqları əsri aydınlatmış və böyük imani xidmət göstərmişlər. Ancaq bu böyük İslam alimlərinin heç biri Quran əxlaqının bütün yer üzünə hakim olmasını, dinin əsaslarının və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsinin yer üzündə hakim olmasına vəsilə olmamışlar. Bədiüzzaman da bu sözləri ilə bu böyük vəzifəni hz. Mehdinin yerinə yetirəcəyini xatırlatmış və bu xüsusiyyət meydana gəlmədən bir şəxsin hz. Mehdi olmasından bəhs edilə bilməyəcəyini xatırlatmışdır.

## 28) Hz. Mehdinin maddi imkanı geniş, yoxsa məhdud olacaq?

"Birinci vəzifə maddi güc ilə deyil, bəlkə qüvvətli etiqad (güclü və səmimi iman) və ixlas (yalnız Allahın məmnuniyyətini güdmə) və sədaqətlə (ürəkdən bağlılıqla) olduğu halda, BU İKİNCİ VƏZİFƏ ÜÇÜN ÇOX BÖYÜK MADDİ GÜC VƏ HAKİMİYYƏT LAZIMDIR Kİ, TƏTBİQ EDİLƏ BİLSİN (yerinə gətirilə bilsin)." (Sikke-i Tasdik-i Gaybi, səh. 9)

Bədiüzzaman hz. Mehdinin ikinci vəzifəsini ancaq "BÖYÜK MADDİ GÜC VƏ HAKİMİYYƏT İLƏ" həyata keçəcəyini vurğulamışdır. Bu gücə sahib olacaq tək şəxs hz. Mehdidir. Bədiüzzaman hz. Mehdinin bu vəzifəsini dünya səviyyəsində həyata keçirəcəyini xatırladaraq, onun sahib olacağı maddi güc və hakimiyyətin də çox böyük miqyasda olacağına diqqət çəkmişdir. Bədiüzzaman yaşadığı müddət ərzində belə güc və hakimiyyət sahibi olmamışdır. Bütün həyatını Quran əxlaqının təbliğinə həsr etmiş, bu uğurda hər cür fədakarlığı gözə almış və çox böyük xidmət etmişdir. Ancaq onun təbliği maddi güc və hakimiyyət içərisində deyil, çox çətin maddi şərtlərdə və bənzərsiz çətinliklər içərisində keçmişdir. Həm Bədiüzzaman, həm də tələbələri böyük iman xidmətlərini çox məhdud imkanlarla reallaşdırmışlar. Bütün bu çətinliklər içərisində, Bədiüzzaman şərəfli mübarizəsini davam etdirmiş və ixlas ilə, səmimiyyəti ilə müsəlmanlara əhəmiyyətli nümunə olmuşdur. Ancaq şəxsən özünün də ifadə etdiyi kimi, bu vəziyyət, hz. Mehdinin əldə edəcəyi "çox böyük maddi güc və hakimiyyət"in Bədiüzzamanın həyatında heç vaxt olmadığını açıq şəkildə ortaya qoymuşdur. Necə ki, Bədiüzzaman da, özünə Mehdilik isnad edən şəxslərə hz. Mehdi olmadığını bu dəlili də qarşıya qoyaraq açıqlamışdır.

## 29) Müsəlmanların əsl İsəvilərlə ittifaqı olubmu?

"O ŞƏXSİN üçüncü vəzifəsi, XİLAFƏTİ İSLAMİYYƏYİ, yəni (İslam xəlifəliyini) BİRLİYİ İSLAMA BİNA EDƏRƏK (İslam Birliyi üzərinə quraraq), İSƏVİ RUHANİLƏR İLƏ (dindar Xristianlarla və Xristian alimlər İlə) İTTİFAQ EDİB (əməkdaşlıq və həmrəylik içərisinə girərək) DİNİ İSLAMA (İslam dininə) XİDMƏT ETMƏKDİR." (Sikke-i Tasdik-i Gaybi, 9)

Bədiüzzaman hz. Mehdinin İslam cəmiyyətini birləşdirib xristian başçılar ilə islam və xristianlığın ortaq cəbhəsi olan "materializm və dinsizliyə" qarşı ittifaq edəcəyini və bu yolla İslam dininə xidmət edəcəyini bildirir. Bir Quran ayəsində bildirildiyi kimi, "...iman gətirənlərə sevgi cəhətdən ən yaxın olanların isə: "Biz xristianıq", - deyənlər olduğunu görərsən. Çünki, onların içində keşiş və rahiblər vardır və onlar təkəbbürlənmirlər." (Maidə surəsi, 82) səmimi müsəlmanlar və səmimi xristianlar bir-birlərinin təbii müttəfiqidirlər. Dinsizliyə qarşı ortaq fikri mübarizə aparmalı və bir-birilərinə yardım etməlidirlər. Axırzamanda bu həmrəyliyin ən gözəl nümunəsi hz. İsa və hz. Mehdi vəsiləsi ilə yaşanacaq. Bədiüzzaman da bu sözləri ilə hz. Mehdinin bu əhəmiyyətli əlamətinə diqqət çəkir.

Hz. Mehdinin İslam Birliyini qurub xristian başçılarla ittifaq etməsi və bu vəsilə ilə İslama xidmət etməsi Bədiüzzamanın yaşadığı dövrdə və əvvəlində də baş verməyib. Bədiüzzaman özü həyatda ikən hələ baş verməmiş bu əhəmiyyətli həqiqəti xatırladaraq, özünün hz. Mehdi olmadığını bir daha sübut edir və hz. Mehdinin özündən sonra gələcəyini müjdələyir.

## 30) Bədiüzzaman səltənət sahibi olubmu?

> "BU VƏZİFƏ, ÇOX BÖYÜK SƏLTƏNƏT, GÜC VƏ MİLYONLARIN FƏDAKARCA İŞTİRAKI İLƏ TƏTBİQ EDİLƏ BİLƏR." (Sikke-i Tasdik-i Gaybi, səh. 9)

Əvvəlki sətirlərdə Bədiüzzamanın hz. Mehdinin "çox böyük səltənət və güc" sahibi olacağını ifadə etdiyi bu sözü təfərrüatı ilə açıqlanmışdı. Bədiüzzaman hz. Mehdinin üçüncü vəzifəsini ancaq belə güc ilə həyata keçirə biləcəyini və bunun da hz. Mehdinin sahib olacağı əhəmiyyətli xüsusiyyətlərdən biri olacağını ifadə etmişdir. Bədiüzzamanın bu sözlərində istifadə etdiyi "Səltənət" anlayışı, güc və səlahiyyət ifadə edən bir sözdür. "GÜC" anlayışı isə "istədiyi şeyi icra edə bilmə gücü, yəni səlahiyyət"i xarakterizə edir. Bədiüzzaman hz. Mehdinin İslam Birliyini meydana gətirib bu birliyin liderliyini boynuna götürəcəyini və "çox böyük güc və səlahiyyətə sahib olacağını" bildirmişdir. Bədiüzzamanın "ÇOX BÖYÜK" sözləri, hz. Mehdinin sahib olacağı bu gücün və səltənətin miqyasının böyüklüyünü ifadə edir.

Bədiüzzaman yaşadığı dövrdə belə böyük güc və hakimiyyətə sahib olmamışdır. Bütün həyatını Quran əxlaqının təbliğinə həsr etmiş, buna görə hər cür fədakarlığı gözə almış və çox böyük xidmət etmişdir. Ancaq onun təbliği maddi güc və hakimiyyət içərisində deyil, çox çətin maddi şərtlərdə və bənzərsiz çətinliklər içərisində keçmişdir. Həm Bədiüzzaman, həm də tələbələri böyük xidmətlərini çox məhdud imkanlarla həyata keçiriblər. Bütün bu çətinliklər Bədiüzzamanın şərəfli mübarizəsini daha qiymətli hala gətirmiş və ixlas ilə, səmimiyyət ilə müsəlmanlara əhəmiyyətli nümunə olmuşdur. Ancaq bir tərəfdən də, özünün də ifadə etdiyi kimi bu vəziyyət, hz. Mehdinin əldə edəcəyi "çox böyük güc və səltənət"in Bədiüzzamanın həyatında mümkün olmadığını açıq şəkildə ortaya qoyur.

FƏSİL

# "Ağıllı dizayn" yalanı

1980-ci illərin ikinci yarısında ABŞ-da təkamül nəzəriyyəsinə qarşı "ağıllı dizayn" adı verilən bir nəzəriyyə ortaya atılmışdır. Bu nəzəriyyə bütün canlıların, Darvinizmin iddia etdiyi şəkildə təsadüflərlə deyil, "ağıllı dizayn" nəticəsində meydana gəldiklərini müdafiə edirdi.

Ancaq bu hərəkatın müdafiəçiləri, bütün canlıların Yaradıcısının aləmlərin Rəbbi olan Allah olduğunu açıqca dilə gətirmirlər.

Bu hərəkatın öndə gələn isimlərindən Michael Behe "ağıllı dizaynın nə olduğunu açıqlayarkən, "ağıllı dizayn, dinə əsaslanan düşüncə deyil, amma dindar insanlar bu nəzəriyyədən öz müzakirələrində faydalana bilərlər" deyir.

> **"Allah yaratmışdır" deməyib yalnız "ağıllı dizayn vardır" demək müsəlmanın istifadə edəcəyi üslub deyil!**

Ölkəmizdə də "ağıllı dizayn nəzəriyyəsini müdafiə edənlər var. Ancaq bu şəxslərin diqqət çəkən bir xüsusiyyətləri vardır. Onlar bu nəzəriyyəni müdafiə edərkən bu hərəkatın qərb dəstəkçilərinin üslublarını təqlid etməyə çalışır və Allahın adını xatırlamaqdan qaçırlar.

"Bütün kainatı, canlı və cansız varlıqları Allah yaratmışdır" demək yerinə açıqlamalarında "kainatda ağıllı dizayn vardır" şəklində üstüörtülü ifadələrdən istifadə edirlər. Bu davranışları, Allahın adını xatırlamaqdan qəsdən çəkindikləri mənasını verir.

Əlbəttə ki, müsəlman olmayanların, dinsizlərin, ya da bəzi fəlsəfəçilərin bu cür üslubdan istifadə etmələrində tənqid ediləcək bir şey yoxdur.

Ancaq, “mən müsəlmanam” deyən şəxsin eyni üslubdan istifadə etməsi qəbul edilməzdir. “Allah yaratdı” deməkdən qaçmaq, “bir güc yaratdı”, “ağıllı dizaynın əsəri” şəklində sözlərdən istifadə etmək müsəlmana yaraşmaz.

Çünki bu cür üslub, “Mən “Allah” demək istəmirəm, “bir güc var, ağıllı dizayn var” demək istəyirəm” mənasını verir ki, bunun da Qurana, İslama uyğun tərəfi yoxdur.

“Hər şeyi Allah yaratdı”, “hər şey aləmlərin Rəbbi olan Allahın “Ol” deməsi ilə oldu” deməkdən çəkinərək, yalnız “kainatda ağıllı dizayn vardır” demək ancaq Allahın varlığına həqiqətən iman etməmiş bir zehniyyətin məhsulu ola bilər.

Yoxsa, ibtidai məktəbdə oxuyan bir uşaq da səmanı, ceyranları, balıqları, quzuları, almanı, bananı, üzümü, portağalı yaradanın Allah olduğunu, “ağıllı dizayn” olmadığını bilir.

**“Ağıllı dizayn”, “ağıllı güc” ifadələri ilə Allahdan başqa kim nəzərdə tutula bilər?**

> *Allahın varlığı gözardı edilərək (Allahı tənzih edirik) qarşıya qoyulan “ağıllı dizayn” iddiası çox ağılsız və məntiqsizdir.*

> *Normal zəkaya sahib vicdanlı bir insan, bir az düşünəndə, kainatda xüsusi hazırlanmış mükəmməllik varsa, bunu yaradanın Allahdan başqası ola bilməyəcəyini başa düşər.*

*Kainatdakı canlı-cansız bütün varlıqların Allahın sonsuz ağlının, elminin, gücünün, üstün yaratma sənətinin təcəlliləri olduğunu görər.*

*Bunun nəticəsində də, "ağıllı dizayn var", "ağıllı güc var" deməz, "Allah vardır, Allah yaratmışdır" deyər.*

*Bilindiyi kimi, İslamiyyətdən əvvəl Məkkədəki müşriklər daşlardan və taxtalardan yonduqları heykəllərə Allahın sifətlərini yaraşdıraraq özlərinə bir sıra bütlər düzəltmişdilər. "Lat", "Menat", "Uzza" kimi müxtəlif ad verdikləri bu bütlərin güc sahibi olduqlarını, canlıları yaratdıqlarını, ruzi verdiklərini, qoruduqlarını irəli sürür, qısaca, Allahın sifətlərini bu bütlərə isnad edərək Allaha şirk qoşurdular.*

*Eyni şəkildə bu gün edilmək istənən də, Allahın üstün sifətlərini "ağıllı dizayn", "ağıllı güc" kimi isimlərlə adlandırılan mücərrəd anlayışlara yükləyərək insanları Allah inancından uzaqlaşdırmaqdır. Bunun mənası isə "ağıllı dizayn" adı verilən bütdür.*

*Quranda müşriklərin bu davranışları haqqında belə buyurulur:*

*Onlar yalnız sizin və atalarınızın ad qoyduqları şeylərdir. Allah onlar haqqında heç bir dəlil nazil etməmişdir. Rəbbi tərəfindən onlara doğru yolu göstərən rəhbər gəldiyi halda onlar yalnız zənnə və nəfslərinin arzularına uyurlar." (Nəcm Surəsi, 23)*

*Masonlar da eyni məntiqdə, əsərlərində kainatı "total gücün, "bir şüurun idarə etdiyini, lakin bundan nəzərdə tutduqlarının qətiyyən Allah olmadığını qarşıya qoyurlar" (Allahı tənzih edirik).*

*Görüldüyü kimi, "ağıllı dizayn" tərəfdarları da masonik izahlardakı məntiqi müdafiə edirlər.*

## Allahın yaratmaq üçün dizayn verməyə ehtiyacı yoxdur

**Yerlərin və göylərin Rəbbi olan Allahın yaratmaq üçün hər hansı "dizayn"a ehtiyacı yoxdur. Allah bütün bunlardan münəzzəhdir.**

**Bəlkə Allahın yaratmasındakı mükəmməllik, "sanki hazırlanmış kimi mükəmməllik var" şəklində ifadə edilə bilər, o qədər...**

**Allahın bir şeyin, ya da bir işin olmasını diləyəndə, onun olması üçün yalnız "Ol" deməsi kifayətdir. Ayələrdə belə buyurulur:**

*"O, bir şeyin olmasını istədiyi zaman ona yalnız: "Ol!" - deyə əmr edər. O da dərhal olar."*

**(Yasin surəsi, 82)**

*Allah göyləri və yeri yoxdan yaradandır. Bir şeyin olmasını istəyən zaman ona yalnız: "Ol!" - deyər, o da dərhal olar.*

**(Bəqərə surəsi, 117)**

## "Ağıllı dizayn" sözləri Allaha inanan şəxslərə də mənfi təsir edə bilər

FƏSİL

# Əlavə: Təkamül nəzəriyyəsinin sonu

21-ci əsrdə bütün dünyanın sürətlə materialist və ateist fikirləri tərk etdikləri bir həqiqətdir.

Təkamül nəzəriyyəsinin etibarsızlığının, bu nəzəriyyənin elmə uyğun olmayan və ağılsız olduğu həqiqətinin gündən-günə daha çox başa düşülməsi ilə insanlarda Allah inancına doğru səmimi yönəliş yaşanır.

Bunun ən təəccüblü nümunələrindən biri, bütün həyatını ateizmi müdafiə etməyə həsr etmiş məşhur elm adamı Anthony Flewdir. Flew ötən aylarda onunla edilən bir müsahibədə ateizmi tərk etdiyini və artıq Allaha inandığını ifadə etmişdir.

Yenə bənzər şəkildə bir çox elm adamı, sənətçi və siyasətçi bəyənatlarında Qurana olan marağını açıq şəkildə dilə gətirirlər.

Vəziyyət belə ikən, "ağıllı dizayn" kimi səmimiyyətdən və İslamdan uzaq izahların iman edən şəxslərə də mənfi təsir edəcəyi açıqdır. Bu cür orta və üstüörtülü izahlar dinə meyl göstərən insanların tərəddüd və ziddiyyətə düşməsinə, səhv etmələrinə səbəb ola bilər.

## "Ağıllı dizayn" şeytanın fərqli yalanıdır

Təkamül kimi batil iddianı rədd edərkən şeytanın yeni tələsinə düşməkdən çəkinmək lazımdır. Çünki şeytanın ən böyük məqsədlərindən biri hər nə şəkildə olursa olsun, Allahın adının xatırlanmasına maneə törətmək, insanları Allahın zikrindən uzaqlaşdırmaqdır.

**Şeytan təkamüllə aldada bilmədiyi insanları bu dəfə də "ağıllı dizayn" kimi fərqli istiqamətə yönəldərək yenə məqsədinə çatacaq, insanları Allahın adını xatırlamaqdan uzaqlaşdıracaq.**

**Şeytanın bu şəkildə haqq adına ortaya çıxıb insanların doğru yollarına oturaraq onları azdırmasına Quranda belə diqqət çəkilir:**

> *(İblis) dedi: "Sən məni azdırdığın üçün, mən də hökmən onları azdırmaq məqsədilə Sənin doğru yolunun üstünə oturacağam. Sonra mütləq önlərindən, arxalarından, sağlarından və sollarından onların yanına soxulacağam. Sən onların çoxunu şükür edən görməyəcəksən."*
>
> (Əraf surəsi, 16-17)

**Təkamül nəzəriyyəsinin çürüdülməsi və təsadüf məntiqinin etibarsızlığının ortaya qoyulması ağıllı dizaynı deyil, Allahın varlığını, hər şeyi Allahın yaratdığını gözlər önünə sərir.**

**"Təkamül yoxdursa, ağıllı dizayn vardır" demək təkamüldən sonra yeni saxta ilah əldə düzəltməkdir.**

### Müsəlman Quranda nümunə verilən peyğəmbərlərin və elçilərin yolunu mənimsəməlidir

Müsəlmanlar elm adamının, ya da elmi axının deyil, Quranda nümunə verilən peyğəmbərlərin və elçilərin yolunu izləməklə, bu mübarək şəxslərin üslubunu nümunə götürməklə məsuldurlar.

Rəsulların hər dövrdə qövmlərinə təbliğ edərkən istifadə etdikləri üslub çox açıq, dəqiq, qərarlı və aydındır. Hamısı qövmlərinə Allahın varlığını və birliyini, Allahdan başqa ilah olmadığını, hər şeyi Allahın yaratdığını açıq şəkildə təbliğ etmiş, insanları yalnız Allaha qulluq etməyə dəvət

etmişlər. Heç biri də təbliğ edərkən Allahın adını açıq şəkildə və cəsurca zikr etməkdən çəkinməmişdir.

Rəsulların bu xarakterlərinin təsvir edildiyi ayələrdən bəziləri belədir:

> *“Həqiqətən, Nuhu öz qövmünə elçi göndərdik. O: “Ey qövmüm! Allaha ibadət edin! Ondan başqa sizin heç bir ilahınız yoxdur! Elə isə, Allahdan çəkinmirsinizmi?” - demişdi.*
>
> **(Muminun surəsi, 23)**

> *“İbrahimi də (yad et)! Bir zaman o öz qövmünə belə demişdi: “Allaha ibadət edin və Ondan qorxun! Əgər (həqiqəti) bilsəydiniz, bunun sizin üçün daha xeyirli olduğunu anlayardınız.*
>
> **(Ənkəbut surəsi, 16)**

> *“Ey zindan yoldaşlarım, müxtəlif ilahlar daha yaxşıdır, yoxsa hər şeyə qadir olan tək Allah?! Allahı qoyub ibadət etdikləriniz sizin və atalarınızın (uydduraraq bütlərə) qoyduğu adlardan başqa bir şey deyildir. Allah onlar haqqında heç bir dəlil nazil etməmişdir. Hökm ancaq Allahındır. O, yalnız Özünə ibadət etməyinizi əmr etmişdir. Doğru din budur, lakin insanların çoxu bilmir.”*
>
> **(Yusif surəsi, 39-40)**

> *O zaman qardaşları Lut onlara belə demişdi: "(Allahdan) qorxmursunuzmu? Həqiqətən, mən sizə göndərilən etibarlı bir elçiyəm. Ona görə də Allahdan qorxun və mənə itaət edin!"*
>
> **(Şuəra surəsi, 161-164)**

> *"...Ey qövmüm, Allaha ibadət edin! Sizin Ondan başqa heç bir ilahınız yoxdur.."*
>
> **(Əraf surəsi, 85)**

> *"Şübhəsiz ki, Allah mənim də, sizin də Rəbbinizdir. Elə isə Ona ibadət edin! Doğru yol budur".*
>
> **(Zuxruf surəsi, 64)**

Göründüyü kimi, Quranda izah edilən peyğəmbərlərin heç birisi "dizayn", "ağıllı dizayn" və ya bənzər anlayışlardan nə istifadə etməyiblər, nə də işarə etməyiblər. Rəsulların hər biri açıq şəkildə Allahın Uca adını zikr edərək cəsarətlə Allahın hökmünü bəyan edirlər.

Quranın və sevimli Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v)-in yolunu mənimsəyən hər Müsəlman da, Rəsulların bu üstün əxlaqını, nümunə rəftar və üslubunu özünə rəhbər seçməklə məsuldurlar.

Əlavə hissə:

Təkamül nəzəriyyəsini sonu

Darvinizm; ara-keçid fosil olmadığı halda, varmış kimi təlqin edər... Etibarsız dəlillər təqdim edər... Var olan bütün fosillər yaradılışı isbat etdiyi halda bunun tam əksini müdafiə edər... Təsadüflər nəticəsində meydana gəlmə ehtimalı ancaq 10950-də 1 olan (yəni "meydana gəlməsi qeyri-mümkün olan" zülallarla) yenə təsadüflər nəticəsində, incəsənət adamları, elm adamları, professorlar meydana gələcəyinə inandırmağa çalışar. Hətta meydana gələn professorların, özlərinin necə təsadüfən yarandığını universitetlər quraraq araşdırdığına da inandırmağa çalışar...

Darvinizm; bir canlı hüceyrə xromosomunda nəhəng bir kitabxanadan daha çox məlumat kodlaşdırılmasını, kor təsadüflərin möcüzəsi olaraq görər... Görməyən, eşitməyən, hiss etməyən, şüursuz atomların, görən, eşidən, hiss edən, düşünən şüurlu insanlar halına gəlməsini, təsadüflərin ilahi gücündən olduğunu iddia edər... Təsadüf, darvinizmin möcüzələr meydana gətirən ilahıdır.

Darvinizm artıq zülalların təkamüllə meydana gələ biləcəyini iddia edə bilmir. Çünki tək bir zülalın belə təsadüfən doğru nizam ilə meydana gəlmə ehtimalı nəzəri olaraq 10950-də 1-dir. Bunun reallaşması isə riyazi olaraq qeyri-mümkündür.

Darvinizm artıq fosilləri təkamülə dəlil göstərə bilmir. Çünki 19-cu əsrin ortalarından bu günə kimi dünyanın dörd bir tərəfində edilən arxeoloji çalışmalarda, təkamülçülərin milyonlarla olduğunu iddia etdikləri "ara-keçid forması" qalıqlarından tək bir ədəd belə tapılmadı. "İtkin halqaların" elmə uyğun olmayan əfsanə olduğu aydın oldu.

Təkamülçülər bu günə qədər tapılmış saysız fosil qarşısında çarəsiz qalıblar. Çünki olan bütün fosillər yaradılışı dəstəkləyir, isbat edir.

Təkamülçülər artıq Archaopteryxin quşların atası olduğunu iddia edə bilmirlər. Çünki Archaopteryx fosilləri üzərində aparılan son

araşdırmalar bu canlının "yarı quş" olduğu iddiasını çürütmüşdür. Archaopteryxin uçuş üçün lazımi anatomiya və beyin quruluşunu qüsursuz olaraq saxladığı, yəni bir quş olduğu aydın olmuş, beləliklə, "quşların təkamülü nağılı" təkamülçülər üçün müdafiə edilə bilməz olmuşdur.

Darvinizm artıq "At silsiləsi" deyə ortaya qoyulan saxta siyahıdan istifadə edə bilmir. Çünki bu saxta silsilənin keçmişdə fərqli dövrlərdə və fərqli coğrafiyalarda yaşamış müstəqil canlı növlərindən ibarət olduğu aydın oldu.

Darvinizm artıq sudan quruya çıxma hekayəsi üçün Coelecanth adlı fosildən istifadə edə bilmir. Çünki soyu tükənmiş ara-keçid forma olduğu iddia edilən bu canlının hələ də yaşayan dərinlik balığı olduğu ortaya çıxmışdır və bu günə qədər bu canlıdan 200-dən çoxu canlı tutulmuşdur.

Darvinizm Ramapithecus, Australopithecus silsiləsi (A. Bosei, A Robustus, A. Aferensis, Africanus və s.) kimi canlıların insanların ataları olduqları iddiasını artıq müdafiə edə bilmir. Çünki bu fosillər üzərində edilən araşdırmalar, bunların insan ilə heç bir əlaqəsi olmadığını və hamısının keçmişdə yaşamış meymun növlərindən ibarət olduğunu ortaya qoymuşdur.

Darvinizm yenidən bərpa (canlandırma) şəkilləri ilə artıq insanları aldada bilməyəcək. Çünki yaşamış heyvanların fosillərinə əsaslanaraq edilən bu canlandırmaların (yenidən bərpa) heç bir elmi dəyərə sahib olmadığı və tamamilə etibarsız olduqları elm adamların tərəfindən açıq şəkildə ortaya qoyulmuşdur.

Darvinizm artıq "Piltdaun insanı"nı təkamülə dəlil olaraq göstərə bilmir. Çünki edilən araşdırmalar "Piltdaun insanı" deyə bir fosilin heç bir zaman

mövcud olmadığını, insana aid kəllə sümüyünə oranqutan çənəsi əlavə olunaraq insanların 40 il boyunca aldadıldığını ortaya çıxardı.

Darvinizm "Nebraska insanı"nın və guya ailəsinin təkamülü isbat etdiyini artıq müdafiə edə bilmir. Çünki "Nebraska insanı" hekayəsinin əsaslanıldığı azı diş qalığının əslində soyu tükənmiş yabanı donuza aid olduğu təsbit edildi.

Darvinizm artıq "Təbii seleksiyanın təkamülə səbəb olduğu iddiasını müdafiə edə bilmir. Çünki bu mexanizmin canlıları təkamülləşdirməyəcəyi, onlara yeni xüsusiyyətlər qazandırmayacağı elmi olaraq isbat edilmişdir.

Darvinistlər yuxarıda sayılanlardan başqa da çox yanlış məlumatlar yayıblar. Bunların hamısının etibarsızlığı zamanla ortaya çıxmışdır. Məsələn; təkamülləşdirici xüsusiyyəti olduğu iddia edilən mutasiyaların tamamilə korlayıcı xüsusiyyətə sahib olduğu və canlılara inkişaf deyil, xəstəlik, şikəstlik və ya ölüm gətirdiyi görülmüşdür... Darvinistlərin insan embrionunda qəlsəmə olaraq göstərdiyi quruluşun əslində insanın orta qulaq kanalının, paratiroidlərinin və timus vəzlərinin başlanğıcı olduğu aydın olmuş, üstəlik embrion şəkillərində təkamülü dəstəkləmək üçün dəyişikliklər edildiyi də ortaya çıxmışdır. Bakteriyalardakı antibiotik müqavimətinə aid genetik məlumatın bakteriyanın "mövcud olduğu andan etibarən" DNT-də olduğu sübut edilmişdir...

KİTAB HAQQINDA

**Ötən əsrin ən böyük İslam alimlərindən biri olan Bədiüzzaman Səid Nursi bir çox mövzuda olduğu kimi, Axırzaman mövzusunda da ən doğru və ən etibarlı məlumatlar verərək müsəlmanlara yol göstərmişdir.**

Hər sətrində güclü iman, nümunəvi səmimiyyət hiss edilən Risalə-i Nur Külliyyatında Bədiüzzaman, başqa heç bir mənbədə olmayan, çox qiymətli təsbit və açıqlamaları ilə müsəlmanları aydınlandırmışdır.

Əlinizdəki bu kitabda, Bədiüzzamanın Axırzaman haqqındakı “hz. Mehdi nə vaxt və harada çıxacaq?”, “hz. Mehdinin vəzifələri nələr olacaq?” və “Bədiüzzamanı Mehdi zənn edənlərə Bədiüzzamanın cavabı nə olmuşdur?” kimi bir çox suala verdiyi cavabları tapacaqsınız.

— HARUN YƏHYA —

**MÜƏLLİF HAQQINDA**

Harun Yəhya imzasından istifadə edən Adnan Oktar, 1956-cı ildə Ankarada anadan olub. 1980-ci illərdən bəri imani, elmi və siyasi mövzularda bir çox əsər yazıb. Müəllifin bu günə qədər 73 müxtəlif dilə tərcümə edilən 300-dən çox əsəri dünya səviyyəsində geniş oxucu kütləsi tərəfindən oxunur.